

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Böyük Qayıdış prosesini həyəcan və sevinclə izləyirik"




12


SƏS

№ 218 (6901)

29 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik


## "Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub"





2

*Antoni Blinken Prezident İlham Əliyevə zəng edib*

# ABŞ-ın Qafqazda yürütdüyü məsuliyyətsiz İMPERİALİST SİYASƏT




8

## Qışa hazırıq?



13

## Qarabağ Universiteti



10

## Evi tez-tez dəyişməyin mənası varmı?..



9

## Əsgər getməyənlərə CƏMİYYƏTİN BAXIŞI



7

## Dönər bazarındakı özbaşınalıq - at, it, yoxsa uzunqulaq əti?



# ”Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub”

*Antoni Blinken Prezident İlham Əliyevə zəng edib*

**Noyabrın 27-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Prezident İlham Əliyev qeyd edib ki, ABŞ tərəfindən Azərbaycanla bağlı son bəyanatlar və atılan addımlar Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.**

Dövlətimizin başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib.

Azərbaycan tərəfinin ABŞ-ın Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və ”ikitərəfli münasibətlərimizdə ”əvvəlki kimi” ola bilməz” bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dan olan yüksək səviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

Dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.



Bununla yanaşı, qeyd olunub ki, sülh müqaviləsinin mətni ilə bağlı Azərbaycan tərəfinin 2023-cü il sentyabrın 11-də Ermənistana təqdim etdiyi təkliflər Ermənistan tərəfindən noyabrın 21-də cavablandırılıb. Beləliklə, Ermənistan öz cavabını 70 gün gecikdirib. Yetmiş günlük gecikdirmə bir daha nümayiş etdirir ki, Ermənistan sülh müqaviləsinin mətnindən danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir.

Danışıqlar zamanı tərəflər, həmçinin noyabrın 30-da Azərbaycan-Ermənistan şərti sərhədində keçiriləcək dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşünə dair fikir mübadiləsi aparıblar.

# SPECA-nın Bakı Zirvə görüşü beynəlxalq medianın diqqət mərkəzində

**BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin KİV-ləri noyabrın 24-də Proqramın Bakıda keçirilən Zirvə görüşünü, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyevin Sammitdəki çıxışı zamanı səsləndirdiyi fikirləri və tədbir çərçivəsində keçirilən görüşləri geniş işıqlandırıb.**

Belə ki, Rusiyanın ”Moskovskiy komsomolets” qəzeti Azərbaycan Liderinin çıxışına istinadla 2026-cı ilədək Qarabağa və Şərqi Zəngəzura 140 minədək keçmiş məcburi köçkünün doğma yurduna qayıdacağını bildirib. Qəzet azad olunmuş ərazilərdə yeni şəhər və kəndlərin inşa olduğunu diqqətə çatdırıb.






TASS agentliyi Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda ilkin mərhələdə 100 yaşayış məntəqəsinin bərpa olunacağını bəyan etdiyini bildirib. Agentlik xatırladıb ki, Prezident İlham Əliyev bir müddət əvvəl 2024-cü ildə Qarabağda bərpa işlərinə büdcədən 2,4 milyard dollar ayrılacağını vurğulamışdı.



Алиев заявил о переселении в Карабах 140 тысяч человек

ФОТО: KREMLIN.RU

Президент Азербайджана Ильхам Алиев анонсировал планы возвращения в Карабах вынужденных переселенцев. До 2026 года в ... также в Восто...



24 ноября, 13:29

Первый этап восстановления Карабаха и Восточного Зангезура охватит 100 населенных пунктов

Президент Азербайджана Ильхам Алиев сообщил, что в рамках программы "Великое возвращение" до конца 2026 года в Карабах и Восточный Зангезур вернутся 140 тыс. вынужденных переселенцев

Читайте ТАСС в Новости Дзен

БАКУ, 24 ноября. /ТАСС/. Программа восстановления Карабаха и Восточного Зангезура на первом этапе охватит 100 населенных пунктов. Об этом сообщил президент Азербайджана Ильхам Алиев, выступая на саммите Специальной программы ООН для экономик стран Центральной Азии (СПЕКА).

"В настоящее время на освобожденных от




Bu ölkənin ”Arqumentı i faktı”, ”News.ru”, ”Lenta.ru”, ”Profile.ru” nəşrlərində, telekanallarında və radiolarından yayımlanan informasiyalarında da Azərbaycan Prezidentinin Zirvə görüşündə səsləndirdiyi fikirlərə geniş yer verilib.

Bundan başqa, Qazaxıstanın ”The Astana Times” nəşrində dərc olunan məqalədə Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşünə geniş yer ayırıb. Müəllif Prezident İlham Əliyevin bu fikirlərini oxucuların diqqətinə çatdırıb: ”Son illər ölkələrimizin hökumət üzvləri arasında, şirkətlər arasında rəsmi səfərlər çərçivəsində bizim aramızdakı təmasların dinamikası əyani şəkildə görünür. Həqiqətən də biz, zənnimcə, ölkələrimizin müstəqil inkişafının bütün tarixində qarşılıqlı fəaliyyətimizin ən yüksək səviyyəsinə çatırıq. Bu, çox xoşdur. Birincisi, bu, məntiqi olaraq xalqlarımız arasında münasibətlərin ruhunu və xarakterini əks etdirir və zamanın hökmüdür”.



THE ASTANA TIMES
BRINGING KAZAKHSTAN TO THE WORLD

All Stories | Nation | International | Business | Central Asia | Tourism | Opinions

President Tokayev Strengthens Bilateral Ties with Azerbaijan's Leader Ahead of SPECA Summit in Baku

BY AIDA HAIDAR in INTERNATIONAL on 24 NOVEMBER 2023

ASTANA — President Kassym-Jomart Tokayev congratulated President of Azerbaijan Ilham Aliyev and Azerbaijan's people for their monumental achievement in safeguarding the country's territorial integrity in compliance with international law and United Nations (UN) Security Council resolutions during his Nov. 24 working visit to Baku to attend the first UN Special Program for the Economies of Central Asia (SPECA) Summit, Akorda press service reported.

Most Recent Stories

Central Asia and EU Collaborate in Initiative for Inclusive Youth Development

President Tokayev Presents Kazakhstan's Perspective for UN Special Program for Central Asian Economies

UNDP Analyzes Potential in Kazakhstan's Regional Creative Ecosystems

Kazakhstan Hosts 325 Refugees from Five Countries

National Bank of Kazakhstan Reduces Base Rate to 15.75% as Inflation Decelerates

Türkiyənin ”Star”, ”Ensonhaber” nəşrləri isə Prezident İlham Əliyevin Ermənistan barədə fikirlərinə geniş yer veriblər. Bildirilib ki, Azərbaycanın dövlət başçısı bununla bağlı deyib: ”Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar”.

Qardaş ölkənin ”Haberler” portalında yayımlanan məlumatda isə qeyd olunub ki, Azərbaycan Prezidenti SPECA yaranända üzv ölkələrin dövlət müstəqilliyinin ilk addımlarını atdıqlarını, qarşıda bir çox problemlərin, çağırışların durduğunu, son 25 ildə isə əsas çağırışların arxada qaldığını qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev ötən müddətdə bu ölkələrin suverenliklərini möhkəmləndirdiklərini, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrildiklərini və iqtisadi cəhətdən sürətlə inkişaf etdiklərini vurğulayıb. O, bunu həmin dövlətlərin və xalqların böyük nailiyyəti və uğuru kimi qiymətləndirib.

Qırğızıstanın ”Akipress” saytının isə bu ölkənin Prezidenti Sadır Japarovun Prezident İlham Əliyevlə görüşünə dair məlumat yayıb. Məlumatda görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluğun ifadə olunduğu, əməkdaşlıq perspektivləri ilə bağlı müzakirələrin aparıldığı qeyd edilib. Zirvə görüşü Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

Bu ölkənin ”realnews.ge”, ”sputnik-georgia.ru”, ”qafqazturk.com”, ”aktual.ge”, ”interpressnews.ge”, ”24news.ge”, ”1tv.ge”, ”kavkasia.net”, ”adjaratv.ge”, ”newsday.ge” portalları tədbir barədə silsilə materiallar dərc ediblər. Azərbaycan, gürcü, rus və ingilis dillərində yayımlanan xəbərlərdə SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən Zirvə görüşünün əhəmiyyəti xüsusi qeyd olunur. İnformasiya portalları və televiziyalar, eyni zamanda, Azərbaycan Prezidentinin Zirvə görüşündəki çıxışı və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşü barədə də informasiyalar yayıblar.

”Kavkasia.net” portalında dərc olunan materialda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından gətirilən sitatda deyilir: ”Dünyada eyni vaxtda iki və ya daha çox stulda oturmaq, bir neçə ağaya qulluq etmək istəyən və özlərini daha böyük dövlətlər arasında qarşıdurma meydanına çevirən bir çox uğursuz asılı ölkələr var. Onlardan biri də Ermənistandır. Belə ölkələri, sözün əsl mənasında, müstəqil adlandırmaq olmaz. Belə ölkələrin siyasəti öz xalqının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir”.

”Realnews.ge” saytında yayılan xəbərdə də Prezident İlham Əliyevin çıxışından fikirlər oxuculara çatdırılıb. Materialda bildirilib: ”Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilib. Azərbaycan bu Fonda 3,5 milyon ABŞ dolları ayıracaq. SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir”. Eyni zamanda, bildirilib ki, Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır.

Portalın digər xəbərində isə deyilir ki, hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Dövlətimizin başçısının nitqindən gətirilən digər sitatda qeyd olunur: ”İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib. ”Keçmiş məcburi köçkünlər ”Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq”.

”Aktual.ge” portalında yayılan materialda isə vurğulanıb: ”Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür”. ”Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib”, - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

”Qafqazturk.com” dərc olunan xəbərdə dövlətimizin başçısının fikirlərinə istinadla bildirilib: ”Azərbaycanda əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib”.

”Sputnik-georgia.ru” saytı Azərbaycan Prezidenti ilə Gürcüstan Baş nazirinin görüşü barədə material yayıb. Xəbərdə deyilir ki, görüşdə əsas diqqət iki ölkə arasında çoxəsrlik, mehriban qonşuluq, dostluq münasibətlərinə yönəldilib və Azərbaycanın Gürcüstanın aparıcı ticarət tərəfdaşlarından biri olduğu bildirilib.

# SPECA daha geniş iqtisadi əməkdaşlıq formatına yol açacaq

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır"

Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir. Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib. Bunun nəticəsidir ki, bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 24-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilmiş BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündəki çıxışı bir neçə cəhətdən mühüm əhəmiyyət daşımaqdadır.






### SON 25 İLDƏ ƏSAS ÇAĞIRIŞLAR ARXADA QALIB

Prezident İlham Əliyevin sammitdə bəyan etdiyi kimi, son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik və ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. "Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur".

Dövlətimizin başçısı onu da vurğulayıb ki, amma heç şübhəsiz uğursuz ölkələr də var, hansısa "ağa"ya, "bacı"ya yarınmaqla, qonşularına xəyanət etməklə, ərazisini poliqona çevirib, regional sülhü, sabitliyi təhlükəyə atmaqla, "nala-mıxa vurma siyasəti" ilə qeyri-ciddiliyin təkinə yuvarlanan birisi də bizim qonşuluqda... Ölkə başçısı sərrast şəkildə ifadə etdi həmin ölkənin gün-güzəranı-nı




### ƏSLİNDƏ, DÖVLƏTİMİZİN BAŞÇISI BAKI ZİRVƏSİNDƏN NÖQTƏLİ ZƏRBƏLƏR ENDİRDİ

Bəli, dövlət başçımız sərrast şəkildə Ermənistanın gün-güzəranını aydın şəkildə nəinki Zirvə görüş iştirakçılarına, bütün dünyaya çatdırdı: "Dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir".

Bəli, marionet Ermənistandan fərqli olaraq SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar. SPECA ölkələri və Azərbaycan iqtisadi, demokratik inkişaf, ictimai-siyasi sabitlik baxımından nümunəvi ölkələrə çevriliblər. "SPECA-nın Bakıda keçirilən zirvə toplantısı bir daha göstərdi ki, Mərkəzi Asiya ölkələri və Azərbaycan vahid geosiyasi, geoiqtisadi və mədəni bir məkandır. Bu gün Azərbaycanın Mərkəzi Asiya ilə qarşılıqlı inteqrasiyası uğurla davam edir. Türk Dövlətləri Təşkilatı, SPECA kimi formatlarda effektiv əməkdaşlıq mövcuddur. Azərbaycanın sədrliyi ilə SPECA regionun iqtisadi inkişafına yönəlik çox gözəl imkanlar yaradan platformaya çevrilməkdədir. SPECA-nın son 25 illik tarixi dövründə ilk dəfə səviyyə iştirakçı ölkələrin dövlət başçıları səviyyəsinə qalxdı. Eyni zamanda, uzun müddətdir, plan olaraq qalan Etimad Fondunun yaradılmasına nail olundu. Prezident İlham Əliyevin dəvəti ilə Gürcüstanın və Macarıstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibinin fəxri qonaqlar qismində iştirak etmələri daha geniş iqtisadi əməkdaşlıq formatı üçün təkan ola bilər.

### "AZƏRBAYCANIN GÜCLÜ İQTİSADİYYATI MÜSTƏQİL XARİCİ SİYASƏT KURSU HƏYATA KEÇİRMƏYƏ İMKAN YARADIR"

Prezident İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında Azərbaycanın son iyirmi ildəki inkişafının əsas göstəricilərini diqqətə çatdıran dövlətimizin başçısı bildirib: "Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır. Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb".

Göründüyü kimi, göstərilən rəqəmlər bir də göstərir ki, bu gün Azərbaycan dinamik inkişafının yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında da bildirdi ki, ərazilərin azad olunmasından dərhal sonra genişmiqyaslı yenidənqurma işlərinə başlanıldı. Bu ərazilərimiz müasir tələblərə uyğun bərpa edilir. Artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib: "Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq".

Beləliklə, Bakı Zirvə görüşündə bütün deyilənlər bir daha sübut edir ki, bu gün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etmişdir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Bir sözlə, bütün bu deyilənlər bir daha onu təsdiqləyir ki, Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü siyasət, qazanılan uğurlar bu gün Azərbaycanın dünya birliyində yerini möhkəmləndirir. Azərbaycan yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib.

**RƏFİQƏ KAMALQIZI**

# ABŞ-dan geriyə addım

*Azərbaycanla təzyiq dilində danışmaq olmaz*

***Qərb ölkələrinin, xüsusən də ABŞ-ın Azərbaycanla bağlı son bəyanatlarında qərəz tam çılpaqlığı ilə özünü göstərir. ABŞ özünün avropalı tərəfdaşları ilə birgə regiona soxulmağa can atır. Amma bunu elə şəkildə, elə bir formada edir ki, istənilən halda əsl niyyətini gizlədə bilmir. Guya Ermənistanın dərdinə yanır, bu ölkəni bataqlıqdan çıxarmağa şalışır, amma digər ölkələrin maraqlarına zidd hərəkətlərlə. Bu da qəbul olunmur, haqlı olaraq dirəniş göstərilir.***

Ermənistan məğlub ölkədir, həm də özünün yürütdüyü səhv siyasət nəticəsində bütün regional layihələrdən kənarda qalıb. Və nəhayət anlayıb ki, təklənib, iqtisadiyyatı hələ də xaricdən gələn ianələr hesabına ayaq üstə durur. Əvvəlki ilişkilər kəsilib, yeniləri isə hələ də yaranmayıb. Ümid qalıb havadarlarının əli ilə regional layihələrə qoşulmağa. Bu layihələr isə Azərbaycan və Türkiyənin əlindədir. ABŞ-ın niyyəti də müxtəlif bəhanələrlə iki qardaş ölkəni bu imkandan məhrum etməkdir. Atılan bu addımlar isə Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurub.










## Blinkenin xahişi, Əliyevin şərti

Münasibətlərin normal olmadığı Prezident İlham Əliyevlə ABŞ-ın Dövlət katibi Antoni Blinken arasında telefon danışığı zamanı da hiss edilib. Dövlət başçısı 2023-cü il noyabrın 15-də ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsinin dinləmələrində ölkəmizlə bağlı səsləndirdiyi fikirlərin qərəzli olduğunu, həqiqəti əks etdirmədiyini və Azərbaycan tərəfindən rədd edildiyini bildirib. Rəsmi Bakının ABŞ-ın Azərbaycana münasibətdə yüksək səviyyəli ikitərəfli görüş və təmasları təxirə salması və "ikitərəfli münasibətlərimizdə "əvvəlki kimi" ola bilməz" bəyanatını nəzərə aldığı, bunu adekvat cavablandırdığı vurğulanıb. Prezident İlham Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin noyabrın 16-da bununla əlaqədar açıqlama verdiyini, Azərbaycan tərəfinin də öz növbəsində ABŞ-dan olan yüksək səviyyəli səfərləri ləğv etdiyini xatırladıb.

ABŞ Dövlət katibi Blinken Azərbaycan Prezidenti İlham Əliyevlə telefon söhbəti zamanı münasibətlərin normallaşdırılması məqsədilə dekabrda ABŞ Dövlət katibinin köməkçisi Ceyms Obrayenin Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-a səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Vaşinqton yönəticiləri elə hesab edirdilər ki, Azərbaycanla istədiyi dildə danışa biləcəklər. Amma alınmadı, çünki istəkləri keçərsizdir, verdikləri qərarlar ədalətsizdir. Ermənistanın 30 il davam edən işğalını görməzdən gələn, beynəlxalq qanunları tullantı hesab edən erməni dövlərinə təzyiq göstərməyən və bu hallarda ağzına su alıb duran bir ölkənin indiki məqamda Azərbaycanı hansısa formada ittiham etməsi çox təəccüblüdür. Üstəlik, bunu giley formasında dilə gətirməsi heç normal deyil. Çünki ABŞ həm də BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir, keçmiş Minsk qrupunda həmsədr, o cümlədən dünyanın supergücüdür. Qüdrətli bir ölkənin erməni yalanlarına boyun əyməsi, erməni lobbisinin havasına oynaması utancvericidir. Blinken bunları bilməlidir.

## Səfirlər niyə çağırıldı?

Qər ölkələrinin qərəzi, Azərbagycana qarşı "ermənidən çox erməni olmaq" siyasəti özünün pik həddindədir. İş o yerə çatıb ki, ölkəmizi daxildən vurmaq üçün çoxdan səssiz rejimdə "yatan" casus şəbəkəsini "ictimai fəallar" kod adı altında yenidən üzərimizə salmağa çalışırlar. Artıq bütün cəmiyyətimiz, hətta xarici ölkələrin diplomatic korpusları bundan xəbərdardır. Təsadüfi deyil ki, 28 noyabr tarixində Amerika Birləşmiş Ştatlarının və Almaniyanın müvəqqəti işlər vəkilləri, habelə Fransanın fövqəladə və səlahiyyətli səfiri ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə çağırılıblar. Görüşlərdə bu ölkələrdə qeydiyyatda olan təşkilatların iştirakı ilə "AbzasMedia" xəbər portalının qeyri-qanuni maliyyə əməliyyatları həyata keçirdiyi, eləcə də sözügedən ölkələrin səfirliklərinin də bu fəaliyyətə cəlb olunduğu diqqətə çatdırılıb və bu fəaliyyətə ciddi etiraz bildirilib.

Qeyd edilib ki, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, FreedomNow, New Democracy Fund və digər təşkilatların qrant verilməsi qaydalarını pozaraq maliyyə resurslarının Azərbaycan ərazisinə qanunsuz yolla transferini həyata keçiriblər, "AbzasMedia"nın fəaliyyətinə qanundan kənar töhfələr veriblər. Qrant fəaliyyəti və qrant müqavilələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyə əsasən qrant müqavilələrinin müvafiq prosedura uyğun olaraq dövlət qeydiyyatına alınmasının tələb olunduğu, qeydiyyatı həyata keçirilməyən layihələrə maliyyə ayrılmasının ölkə qanunvericiliyinin ciddi pozuntusu olduğu vurğulanıb.

Media haqqında Azərbaycan Respublikasının Qanununda da yazılıb ki, yerli media subyektinin xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilmə yolverilməzdir. Bu fikirlər diplomatların da diqqətinəçatdırılıb və digər qanunazidd əməllər xatırladılıb. Həmin ölkələrin səfirliklərinin və onlara məxsus təşkilatların ölkəmizin ərazisində qeyd edilən qanunvericiliyə zidd hərəkətləri Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının da pozuntusu olduğu da qeyd edilib. XİN-in məlumatında həmçinin "Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinə zidd olan və ölkənin daxili işlərinə qarışmaq məqsədi daşıyan bu fəaliyyəti şiddətlə qınayıb və sözügedən faktlarla əlaqədar milli qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görmək hüququnu özündə saxladığı" diqqətə çatdırılıb.

Yerli mətbuatın da yaydığı xəbərdə ABŞ-ın Bakıdakı səfirliyinin bu ölkədə təhsil almış azərbaycanlıların iştirakı ilə "JW Marriott Absheron" hotelində keçirəcəyi "Məzunların yubiley qalası" adlı görüşün ləğv edildiyi qeyd edilib. Məqsəd ABŞ-ın Azərbaycanda fəaliyyət göstərən agentura şəbəkəsini bir araya gətirmək idi. Sən demə bu görüş aylar əvvəl planlaşdırılıb, hazırlıq işləri, həm də çox məxfiliklə aparılıb. Azərbaycanın müvafiq strukturlarının məsələyə müdaxiləsi bu cəhdin qarşısını alıb. Hər kəsə bəllidir ki, ABŞ məhz özünün formalaşdırdığı şəbəkədə uzun illər təhsil verdiyi qeyri-amerikalıları təşkilatlandırıb. Onları dövlətin himayəsindən demək olar ki, qoparıb öz təsiri altında müxtəlif planların həyata keçirilməsi üçün ehtiyatda saxlanılıb. Bunu üçün uzun illər lazım olub. "İctimai fəal" adı altında zaman-zaman özünü ifşa edən azərbaycanlı "amerikalılar"ı az görməmişik. Bu, sadəcə, aysberqin görünən tərəfidir.

## ABŞ-ın çirkli tələbi

Qayıdaq ABŞ-ın Azərbaycan və Ermənistan arasında aparılan sülh müzakirələrinə. Azərbaycanın yaratdığı reallıqla könülsüz razılaşan Vaşinqton yeni-yeni formatlar tətbiq etməyə və bir az da vaxtı uzatmağa çalışır. Əcəba, demokratların hələ çoxmu vaxtı var, 2024-ün seçki ili olduğunu yəqin ki, nə Bayden, nə də onun komandası unutmayıb. Belə olan halda vaxtı uzatmaq kimə sərf edir? Bəli, elə bilməyin ki, Avropa ilə ABŞ-ın mövqeləri həmişə üst-üstə düşür. Qoca Avropa həmişə amerikalıların əksinə gedib. Amma bəzi məsələlərdə məcburi birləşmə, sinxronluq işə salınır. Azərbaycanı təkləmək, dəstəksiz qoymaq həmişə Qərbin planında olub, bu, sir deyil. Qardaş və dost ölkələrin mənəvi dəstəyi ilə Qarabağ məsələsini həll etdiyimizi heç kim danmır. Amma bizim əvəzimizdən heç bir ölkə, heç bir xalq cəbhədə döyüşmədi, qələbə Azərbaycana ana südü kimi halaldır. Mənəvi dəstək verən olkələr oldu, hətta heç bir ölkəyə silah satmayan dostlarımız bunu Azərbaycana tərəddüdsüz etdilər. Həmin silahların qələbəmizdə nə qədər payı olduğunu hər kəs gördü. Bu gün Amerika Azərbaycanı tərksilah etmək üçün min bir kələk işlədir.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömer Çelik mətbuat konfransı zamanı deyib ki, Ermənistanın destruktiv addımlardan əl çəkdiyi təqdirdə, "3+3" əməkdaşlıq formatı bölgədə sülh üçün böyük töhfə verəcək. Çelik xüsusi olaraq vurğulayıb ki, ABŞ Türkiyədən Azərbaycana Qarabağın azad edilməsi üçün verdiyi dəstəyi kəsməsini tələb edib. Onun sözlərinə görə, Vaşinqton bunu sözügedən dövrdə F-16-ların Türkiyəyə göndərilməsi üçün şərt olaraq irəli sürüb. Əslində ABŞ Türkiyəyə F16-ları verməmək üçün bu şərtləri irəli sürür. Bilir ki, qardaş Türkiyə heç vaxt Azərbaycandan əlini çəkməz, qardaşını tək qoymaz. Bu, bir Amerika siyasətidir. F16-ların Türkiyəyə satılmaması üçün hansı bəhanələr gətirməyib ki.

Fransanın təxminən yeddi təlim mərkəzində müharibədə iştirak etmək üçün Ermənistandan olan əsgərlər hazırlanır. Azərbaycan mediasının yaydığı məlumatlardan da bəlli olur ki, "Fontevrault L'Abbedəki" təlim mərkəzidə erməni əsgərlər hazırlıq keçir. Belə təlim mərkəzlərinin sayı çoxdur, hər gün artır. Xüsusilə, Mayi-le-Kan ərazisindəki "CENTAC - Centre d'entrainement au combat" döyüş hazırlığı mərkəzi və "CES - Center d'entrainement des post de" təlim mərkəzində erməni hərbçilərinə təlim keçənlər yüksək rütbəli fransız zabitlərdir. Əsasən də Qarabağdan qaçan separatçılar bura cəlb olunurlar. Ermənistan Müdafiə Nazirliyi də proqrama tam dəstək verir.

Beləliklə, Qərb dövlətlərinin Cənubi Qafqaz siyasətində mənfi çalarlar kifayət qədərdir. İrəvana dəstəyin arxasında erməni sevgisi yoxdur. Fransanın və ABŞ-ın niyyəti bölgəni nəzarət altına almaqdır. Necə? Bunu zaman gösərəcək, deyə bilərdik. Amma hər şeyi zamana bağlamanın, taleyin ümidinə buraxmanın acı nəticələri hər kəsə bəllidir. Qərb boşuna ümidlənməsin.

**V.VƏLİYEV**

# "Ölkəmiz yeni strateji inkişaf mərhələsinə qədəm qoyub"

## Əlaqələndirmə Qərargahının 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib

**Noyabrın 28-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın 3 illik fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilib.**



SİA xəbər verir ki, Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq, Azərbaycan Respublikası Prezidentinin məqsədyönlü, ardıcıl və müdrik siyasəti nəticəsində 2020-ci ilin noyabrında torpaqlarımızın işğaldan azad edilməsi ilə ölkəmizin və bütövlükdə regionun yeni strateji inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. O qeyd edib ki, 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağdakı Ermənistan silahlı qüvvələrinin birləşmələri tərk-silah edilib, onların hərbi infrastrukturu zərərsizləşdirilib, işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Respublikasının Konstitusiya quruluşu və suverenliyi tam bərpa olunub. Əminliklə demək olar ki, bu gün Azərbaycan xalqı öz tarixinin ən şanlı və qürurverici dövrünü yaşayır.

Samir Nuriyev Qərargahın ötən 3 illik fəaliyyəti dövründə dövlətimizin başçısının verdiyi tapşırıqlara əsasən işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirildiyini, yeni şəhər və kəndlərin salınması istiqamətində işlərin sürətlə davam etdiyini diqqətə çatdırıb. Bu sahədə qarşıya qoyulmuş vəzifələrin icrasında səmərəlilik, hesabatlılıq, qurumlararası qarşılıqlı kommunikasiya, əlaqələndirilmə və operativlik Qərargahın fəaliyyətinin əsas prinsipləri olub.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, antiterror tədbirləri nəticəsində suverenliyin bərpa edildiyi ərazilərdə zəruri məsələlərin həlli istiqamətində görülən işlər, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərdə həyata keçirilən işlərin cari vəziyyəti, geri qayıdan əhalinin məskunlaşmasının, təhlükəsizliyinin və dayanıqlı məşğulluğunun təmin edilməsi, azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili ilə bağlı məruzələr dinlənilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi sahəsində aparılan işlərə dair məruzə təqdim edilib. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin iclasın gündəliyindəki məsələlərin yerlərdə əlaqələndirilməsi və müvafiq ərazilər üzrə görülən işlərin cari vəziyyəti barədə məlumatları dinlənilib. İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.

# "Azərbaycan iqtisadiyyatı davamlı və inkişafdadır"

"Son 20 ildə Azərbaycan iqtisadiyyatının 4, valyuta ehtiyatlarının 37 dəfə artması, ölkə iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulması onu deməyə əsas verir ki, iqtisadiyyatımız davamlı və inkişafdadır. Əlbəttə ki, bu, ölkə rəhbəri İlham Əliyevin apardığı iqtisadi siyasətin nəticəsidir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Tahir Rzayev deyib.



Onun sözlərinə görə, bu siyasət bir çox dövlət proqramları əsasında həyata keçirilir: "Çox sevindirici haldır ki, iqtisadiyyata qoyulan sərmayənin 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, Azərbaycanda son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən çox mühüm tədbirlərin nəticəsidir. Bu gün Azərbaycan aqrar respublika səviyyəsindən güclü iqtisadiyyata malik bir dövlət səviyyəsinə yüksəlib. İqtisadi Əməkdaşlıq Təşkilatının ( ECO) 16-cı Sammitində Azərbaycan Prezidenti bir daha xarici sərmayədarları ölkəyə cəlb etmək üçün hər cür imkanın olduğunu xatırlatmış və bildirmişdir ki, işğaldan azad olunmuş ərazilərdə görülən yenidənqurma, tikinti-abadlıq işləri ölkədə iqtisadi inkişafın sürətlə irəlilədiyini göstərir. Azərbaycan iqtisadiyyatı güclü olmasaydı, bir neçə il ərzində azad olunmuş ərazilərə 7 milyard həcmində vəsait ayrılması mümkün olmazdı".

Deputat sözlərinə davam edərək bildirib ki, qeyri-neft sektorunun əsas sahələrindən biri də aqrar sektordur: "Son illər aqrar sektor ilə əlaqədar tərtib olunmuş dövlət proqramları onun inkişafına yeni bir təkan verib. Ölkənin aqrar sektoru artıq 3,2% artıma nail olub. Bu gün işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun inkişafı üçün çox güclü potensial var. Həmin ərazilərdə nəinki aqrar sektorun, turizm, nəqliyyat, emal sənayesi və digər sahələrin inkişafına da şərait yaradılır. Dövlət başçısı ECO-nun 16-cı Zirvə toplantısında təşkilata üzv olan dövlətlərin qarşılıqlı mübadiləsini vacib hesab edərək bildirib ki, artıq bu təşkilat dünyada öz rolunu və yerini qiymətləndirən bir platformaya çevrilib. Bu ölkələrin nəinki iqtisadi, eyni zamanda digər sahələrdə əldə etdiyi nailiyyətlər onu deməyə əsas verir ki, gələcəkdə qarşılıqlı iqtisadi münasibətlərin genişləndirilməsi dövlətlərin milli mənafeyinə öz töhfəsini verə bilər. Bu töhfə bilavasitə əhalinin rifahının yaxşılaşdırılması üçün vacib şərtdir. Əlbəttə ki, ölkə iqtisadiyyatının inkişafı yeni iş yerlərinin açılması, insanların həyatının yaxşılaşdırılması deməkdir. Xüsusilə, son illərdə regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramının qəbul edilməsi bu gün bütün sahələrdə yeni uğurların əsasının qoyulmasına zəmin yaradıb və iqtisadiyyatın inkişafına bir stimul olub".

"Prezident İlham Əliyev Zirvə toplantısında iqtisadi məsələlərlə yanaşı, Azərbaycanın düşmən üzərində əldə etdiyi qələbələrdən, ölkədə görülən dinc quruculuq-abadlıq işlərindən, eləcə də Azərbaycan xalqının sülhə və insan haqlarına verdiyi dəstəkdən söz açaraq bildirmişdir ki, biz qalib xalq olsaq da, yenə də dünyada sülh, təhlükəsizliyin tərəfdarıyıq. Bu mübarizə ECO ölkələri ilə birgə fəaliyyətdən keçir. Ölkə rəhbərinin səsləndirdiyi fikirlər bir daha göstərir ki, Azərbaycan iqtisadiyyatı bundan sonra da inkişaf edəcək. Bundan əlavə xarici sərmayədarların ölkəyə cəlb edilməsi, onlara diqqət göstərilməsi üçün bütün imkanlardan istifadə ediləcək",- deyə o ələvə edib.

***Ləman Sərraf***

# ASAN könüllüləri: Cəmiyyətdə pozitiv təsir yaratmaq

*SORĞU*

ASAN xidmətinin könüllülük proqramı, cəmiyyətə faydalı olmağa nail olmağın və şəxsi inkişafı dəstəkləmənin müstəqil bir yolu kimi özünü göstərir. Bu könüllülük proqramına qoşulmaq, insanlara yardım etmə və cəmiyyətə xidmət etmək imkanı yaratmaq üçün böyük bir təcrübədir. Bu proqram, şəxsi inkişafımızı dəstəkləyir və bir-birimizə yardım etməklə daha güclü bir cəmiyyət yaratmağımıza nail olur. Bəs, bu könüllülük gənclərə daha hansı təcrübələri qazandırır? SİA mövzu ilə əlaqədar olaraq ASAN könüllüləri arasında sorğu keçirib.

**Fatma Cəfərli:** "ASAN xidmətin könüllüsü olmaq, insanlara yardım etmə və sosial fəaliyyəti artırmaq üçün böyük bir fürsətdir. Könüllük, təcrübə və bacarıqları inkişaf etdirir, ictimai bacarığı gücləndirir və müstəqil işləmə bacarığını artırır. Digər tərəfdən isə bu təcrübə ətrafımızdakı məsələləri daha yaxından başa düşməmizə kömək edir və ən əsası isə ictimai mövqeyi inkişaf etdirir".




**Aytac Abbasova:** "Bu könüllülük fəaliyyəti mənə məsuliyyətli, dəqiq və çevik olmağı öyrətdi. Xüsusən də kollektivdə, əməkdaşlar arasında necə özümüzə yer tutmağı göstərdi. Hər zaman düşündüyüm "Rastlaşa biləcəyim müxtəlif xarakterdə vətəndaşlarla necə ünsiyyət qurmalıyam" sualına verdiyi təcrübə ilə cavablanırdı. ASAN xidmət bu və bunun kimi bir çox faydalı şeyləri mənə qatdı".

**Zəhra Xalıqlı:** "Könüllülükdə keçirdiyim 3 ay sosial bacarıqlarımın inkişaf etməsinə, insanlarla ünsiyyətimin təkmilləşməsinə kömək etdi. Bununla bərabər insanlara qarşı sosial məsuliyyətim də artdı. Vətəndaşlara kömək edə bilmək bu işin ən dəyərli hissəsidir. Məhz buna görə düşünürəm ki, könüllüklər bəzən sertifikatlardan daha dəyərli ola bilir".

**Səmra Quliyeva:** ASAN könüllüsü olmaq mənə hər zaman işimdə səbrli olmağın vacib olduğunu öyrətdi. Qarşımdakı insanlarla ünsiyyətdə xoş və gülərüzlülüyün insanlar üzərindəki pozitiv təsirinin necə əhəmiyyətli olduğunu göstərdi. Məsuliyyəti olmağın gətirdiyi müsbət nəticələrin olduqca faydasını gördüm .Yeni biliklər qazandım. Tədbirlərin və seminarların təşkilində iştirak etmək, yeni simalar tanımaq bunların hər biri məni üçün dəyərli qazanc idi".

**Aytac Məmmədli:** "ASAN xidmətdə könüllü olaraq fəaliyyət göstərdiyim 3 ayda çox böyük yeniliklər ilə qarşılaşmadım amma burada özümə uyğun "dost" deyə biləcəyim könüllü yoldaşlarım oldu və bu mənim üçün sevindirici hal idi. Könüllü olduğum müddətdə çox daha güclü bir xarakter əldə etdiyimi düşünürəm. Bu şəraitdə yaşanan hər bir pis, ya da yaxşı situasiyadan özüm üçün dərs çıxarıb öz xeyrimə öz inkişafima yenilik qatmışam. Həmçinin öz iradəmi, öz düşüncə fərqimi möhkəmləndirmişəm. Yeni bir sahədə nümayəndə kimi fəaliyyət göstərməyə başladıqda isə ASAN xidmətə öz təşəkkürümü bildirdim, çünki onlar sayəsində iradəli və güclü bir insan oldum".

**Nigar Xudaverdiyeva:** "Könüllü olmadan əvvəl insanlarla ünsiyyət qabiliyyətim olduqca zəif idi. Onlarla danışmaqdan çəkinirdim və özümü ifadə edə bilmirdim. Könüllü olduqdan sonra isə bu vəziyyət tamamilə dəyişdi. Artıq vətəndaşlarla rahatlıqla ünsiyyətə girə bilir, özümü daha yaxşı ifadə edə bilirəm. ASAN xidmətin mənə öyrətdiyi digər ən əsas məqamlardan biri isə yaranan problemləri tez həll etmək idi. Bu könüllülük müddəti mənə problem həllini tez tapmağı, necə tapmağı da öyrətdi. Digər tərəfdən artıq az da olsa iş sistemini bilirəm. İş prosesine 3 ay müddətində şahidlik etmişəm. Könüllülüyün mənim üçün aradan qaldırdığı bir digər problem isə tənbəllik idi. Bəzən buna görə işlərimdə gecikmə halları baş verirdi. Könüllülük isə yaranan bu halı tamamilə aradan qaldırdı. Artıq planlarımı vaxtında yerinə yetirə bilirəm".

***Özləm Quliyeva***

# "Bu layihələrə maliyyə ayrılması ölkə qanunvericiliyinin ciddi pozuntusudur"

## ABŞ, Almaniya və Fransa diplomatları Azərbaycan XİN-ə çağırılıb



**Noyabrın 28-də Amerika Birləşmiş Ştatlarının və Almaniyanın müvəqqəti işlər vəkilləri, habelə Fransanın fövqəladə və səlahiyyətli səfiri ayrı-ayrılıqda Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıblar. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə bu ölkələrdə qeydiyyatda olan təşkilatların iştirakı ilə "AbzasMedia" xəbər portalının qeyri-qanuni maliyyə əməliyyatları həyata keçirdiyi, eləcə də sözügedən ölkələrin səfirliklərinin də bu fəaliyyətə cəlb olunduğu diqqətə çatdırılıb və bu fəaliyyətə ciddi etiraz bildirilib.**

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, "Freedom-Now", "New Democracy Fund" və digər təşkilatların qrant verilməsi qaydalarını pozaraq maliyyə resurslarının Azərbaycan ərazisinə qanunsuz yolla transferini həyata keçirdikləri, "AbzasMedia"nın fəaliyyətinə qanundan kənar töhfələr verdikləri qeyd olunub.

Qrant fəaliyyəti və qrant müqavilələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qrant müqavilələrinin müvafiq prosedura uyğun olaraq dövlət qeydiyyatına alınmasının tələb olunduğu, qeydiyyatı həyata keçirilməyən layihələrə maliyyə ayrılmasının ölkə qanunvericiliyinin ciddi pozuntusu olduğu vurğulanıb.

Bununla yanaşı, beynəlxalq təcrübəyə uyğun olaraq, Media haqqında Azərbaycan Respublikasının Qanununa əsasən yerli media subyektinin xarici ölkələrin fiziki və ya hüquqi şəxsləri, habelə xarici ölkələrin dövlət qurumları tərəfindən maliyyələşdirilməsinə yol verilmədiyi xatırlanıb.

Sözügedən ölkələrin səfirliklərinin və onlara məxsus təşkilatların ölkəmizin ərazisində qeyd edilən qanunvericiliyə zidd hərəkətləri Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının da pozuntusu olduğu qeyd edilib.

Azərbaycan tərəfi ölkəmizin qanunvericiliyinə zidd olan və ölkənin daxili işlərinə qarışmaq məqsədi daşıyan bu fəaliyyəti şiddətlə qınayıb və sözügedən faktlarla əlaqədar milli qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görmək hüququnu özündə saxladığı diqqətə çatdırılıb.



# "Heç bir region dövləti Azərbaycanla müqayisə edilə bilmir"

*MÜNASİBƏT*

"Soyuq müharibədən sonra qütblərarası ziddiyyətin ən pik həddə çatdığı və hətta mövcud situasiyanın üçüncü dünya müharibəsi kimi qiymətləndirildiyi bir şəraitdə cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin əsl mahiyyəti daha aydın formada görünməkdədir. Mövcud reallıq, xüsusən regionda baş verən proseslər fonunda daha aydın formada sezilir. Azərbaycan MDB məkanında və bütövlükdə regionda İkinci Dünya müharibəsindən sonra hərbi-siyasi yolla qələbə qazanan, işğala son qoyan, öz gücü hesabına beynəlxalq hüququn aliliyini təmin edən yeganə dövlətdir. Həmçinin məhz cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında Azərbaycan bir sıra Qərb dairələrinin belə əsrlərdir öz ərazilərində həll edə bilmədikləri separatizm problemini cəmi 23 saata kökündən qazımaqla separatizmlə mübarizədə effektiv nəticə göstərən yeganə dövlət kimi müasir tarixə adını yazdırıb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Bəhruz Məhərrəmov deyib.

"Bildiyiniz kimi, bir sıra Qərb dairələri, o cümlədən ABŞ və Fransa regionda işğal faktoruna, həmçinin separatizmin mövcudluğuna özlərinin neoimperialist niyyətlərinin reallaşması üçün mühüm və effektiv rıçaq kimi baxırdılar. Lakin cənab İlham Əliyev 3 il ərzində Ermənistan və onunla bərabər havadarlarını iki dəfə kapitulyasiyaya məcbur etməklə, həm də regionda müstəqil gücün, diqtə edən iradə sahibinin kim olduğunu aydın şəkildə ortaya qoymuş oldu. Bu gün nə siyasi və iqtisadi müstəqillik baxımdan, nə suveren iradə baxımdan heç bir region dövləti Azərbaycanla müqayisə edilə bilmir",- deyə o əlavə edib.

Deputat sözlərinə davam edərək bildirib ki, region dövlətlərində siyasi səhnədə qeyri-stabil ab-havanın mövcudluğu, hakimiyyət qolları arasında davamlı çəkişmələr, həmçinin hakimiyyətdə olan güclərin ayrı-ayrı ölkələrin marionetlərinə çevrilməsi, eləcə də ölkələrin ərazilərinin hələ də işğalda qalması fonunda Azərbaycanın qeyd etdiyimiz nəticələrə nail olması, həqiqətən də, çox ciddi və çoxları üçün də gözlənilməz nəticə idi: "Bu mənada, cənab İlham Əliyevin bir neçə dəfə bəyan etdiyi kimi, Azərbaycanı münaqişəli bir regionda təhlükəsiz ada hesab etmək olar. Təbii ki, Azərbaycanı regionda fərqləndirən, sabitlik və təhlükəsizlik adasına çevirən mövcud situasiya tarixi proseslərin təbii axarında meydana çıxmayıb, hər bir uğurun arxasında ciddi siyasi iradə, sarsılmaz qətiyyət və xalq-iqtidar birliyinin təntənəsi dayanır.

Əlbəttə, bu hələ yolun başlanğıcıdır və Azərbaycan xalqının Heydər Əliyev siyasi kursuna sarsılmaz bağlılığı davam etdikcə, xalqımız Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında daha sıx birləşdikcə daha ciddi uğurlara şahidlik edəcəyik".

***Ləman Sərraf***

# Sosial şəbəkələrə Azərbaycan cəmiyyətinin BAXIŞI

SORĞU

**Sosial şəbəkələr həyatımızın ayrılmaz parçasıdır. Bəs bu ayrılmaz parça bizə ancaq müsbət təsirmi göstərir? SİA olaraq vətəndaşların sosial şəbəkələr haqqındakı fikirlərini öyrəndik.**



**Şəhər sakini Səbuhi Paşayev düşünür ki, sosial şəbəkələrin daim nəzarətdə olması mənfi haldır:** "İnsanların heç nədən xəbəri olmur. Biz VPN açdıqda informasiyaları daha çox öyrənir, əldə edirik. Ölkədaxili müəyyən şeylərə müdaxilə edildiyi üçün çox şeydən informasiyamız olmur. Məsələn, hər kəs "Youtube" işlətdiyini düşünür, amma elə deyil. VPN açıb Youtube-a daxil olsanız tamam fərqli olacaq. Bütün ölkələrdə nə baş verirsə izləyə biləcəksiniz. Əxlaqi cəhətdən müəyyən qadağalara razıyam, amma hər şeyi də qadağan etmək olmaz. Müəyyən yaş kateqoriyası qoyulmalıdır, amma elə informasiyalar var ki, bizim də xəbərimiz olmalıdır".

**Şəhər sakini Bəhram Zöhrabovun fikrincə isə, sosial şəbəkələrdən biri olan "TikTok" barədə ancaq mənfi şeylər demək mümkündür:** "Başqa ölkələri deyə bilmərəm, amma Azərbaycanda biabırçı vəziyyətdədir. Youtube-a gəldikdə maarifləndirmə üçün effektivdir. İnstaqram vaxt keçirmək üçün yaxşıdır. Tiktok barədə isə müsbət bir şey demək mümkün deyil".

**Şəhər sakini Elmir Həsənov sosial şəbəkələrin informasiyaların daha tez əldə edildiyi üçün müsbət olduğu qənaətindədir:** "Yolda, metroda, nəqliyyat vasitələrində də informasiya əldə edə bilirik. Bəzi yerləri kəşf edir, insanlar haqqında məlumat əldə edirik. Mənfi cəhəti odur ki, bəzi insanlar vaxtını idarə etməyi bilmir".

**Şəhər sakini Ziya Əliyev sosial şəbəkələrin mənfi cəhətinin insanların dünyagörüşlərinə mənfi təsir göstərməsi olduğunu qeyd edib:** "Uşaqlar, gənclər, yeniyetmələr qeyri-etik videolarla qarşılaşır. Müsbət cəhəti isə insanların maariflənməsidir. Elmi videolar çəkən, bu işlə məşğul olan insanları izləyənlər maariflənir".

**Şəhər sakini Məryəm Mustafayeva sosial şəbəkələrdən tez-tez istifadə etdiyini bildirib:** "Sosial şəbəkələr çox yaxşı olsalar da, çox vaxt alırlar. Sosial şəbəkələrdən çox informasiya əldə etmək olur. Nə çox yaxşı, nə də çox pisdir deyə bilərəm. Tək mənfi tərəfi çox vaxt almasıdır. Bəzən dərslərimi oxumalı olduğum vaxt TikTokda vaxt keçirirəm".

**Şəhər sakini Rahidə Məmmədli sosial şəbəkələrə münasibətinin həm yaxşı, həm də pis olduğunu vurğulayıb:** "Pis olmasının səbəbi odur ki, çox vaxtımızı alır və asılılıq yaradır. Mən dərslərə vaxt ayıra bilmirəm. Sosial şəbəkələrdən ayrı qalmağa çalışsam da, alınmır. Telefonu qoyub dərs oxusam da, bir saat sonra TikTok, yaxud Instagrama girirəm. Ona görə yaxşıdır ki, maarifləndirici videolar olur. Onlara baxanda nəsə öyrənirik".

**Şəhər sakini Özləm Quliyeva sosial mediaya münasibətinin normal səviyyədə olduğunu deyib.** "Fikirləşirəm ki, məqsədəuyğun şəkildə istifadə etdikdən sonra işlədilən hər online platformadan xeyirli məlumatlar əldə etmək olar. Digər tərəfdən məqsədəuyğun şəkildə istifadədən başqa, bu istifadənin müddətli olmasının da tərəfdarıyam. Sizin də bildiyiniz kimi, hər şeyin çoxu ziyandır. Uzun müddət, saatlarla sosial mediadan istifadə etmək normal yaşantımızı da müəyyən dərəcədə ziyanlar vurur. Məqsədini bilmədən və vaxtını ölçmədən sosial mediada vaxt keçirmək bizim üçün bir çox fəsadlar törədiblər. Amma dediyim kimi, internet, sosial şəbəkələr səmərəli şəkildə istifadə edildikdə insana bir çox xeyri ola bilir. Hər nə qədər online münasibət ənənəvi münasibətin yerini verməsə də, yaşadığımız dövrə ayaq uydurub, özümüzə lazım olan və çalışdığımız qədər faydalı şeylər üçün istifadə etməliyik".

***Rəşid Qarayev***



# Əsgər getməyənlərə cəmiyyətin baxışı

**Günümüzdə hərbi xidmət aktual mövzulardan biridir. Kimi onu "kişilik məktəbi" adlandırır, kimi "Vətən borcu müqəddəsdir" deyir. Bu müqəddəs borcdan boyun qaçırıb hərbi xidmətə getməyən gənclər də var. Sözügedən gənclərin bəzisi üzrlü səbəblərə görə əsgər gedə bilmir, digərləri isə, sadəcə, getmək istəmir. Bəs əsgər getməyən şəxslərə gənclərin münasibəti necədir?**

SİA bu mövzuda müxtəlif universitetlərin tələbələri arasında sorğu keçirib.

**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin 4-cü kurs tələbəsi Ziyafət Əli-**



**soyun fikirlərinə görə, hər bir Azərbaycan kişisi hərbi xidmət mərhələsindən keçməlidir:** "Bu Vətən hər birimizindir, onun qeydinə də biz qalmalıyıq. Lazım gələndə Vətən uğruna ölməli, lazım gələndə öldürməliyik".

Z.Əlisoy əsgərliyə getməmək üçün üzrlü səbəblərin olacağını da diqqətə çatdırıb: "Əsgərliyə getməməyin səbəbləri müxtəlif ola bilər. Buraya sağlamlıqla, təhsillə bağlı məsələlər daxildir. Sağlamlığı imkan verən, təhsilini davam etdirməyən gənclərdən söhbət gedirsə, o zaman hərbi xidmətə getməlidirlər".

**Azərbaycan Dövlət Pedoqoji Universiteti Filologiya fakültəsinin 3-cü kurs tələbəsi Fərqanə Kərimova əsgərliyə getməyən oğlanlara normal münasibət bəslədiyini bildirir:** "Bir insanın xarakteri, mənəvi keyfiyyətləri, daxili aləmini hərbi xidmətlə



bağlamaq olmaz".

F.Kərimova əsgərliyə getməyən oğlanla ailə həyatı qurmayacağını və bunun səbəbini açıqlayır: "Hərbi xidmətə getməyən şəxslər dövlət deyil, adi işlərdə çalışdığı üçün həmin şəxslərlə ailə həyatı qurmaram. Biz gənc qızlar gələcək ailə həyatımızın gözəl olmasını istəyirik. Bir halda ailə həyatı quraram ki, həmin şəxsin ata-babadan qalan mirası və şəxsi biznesi var".

**Bakı Slavyan Universitetinin Regionşünaslıq ixtisasının 3-cü kurs tələbəsi Rahib Rzayev Azərbaycan gənclərinin hərbi xidmət üçün hazır olduqlarını, vətən üçün canlarından belə keçməyə hazır olduqlarını qeyd edir:** "Hərbi xidmət hər Azərbaycan oğlunun mənəvi və Vətən borcudur. İşğal al-



tında qalan torpaqlarımızı hərbi yolla geri qaytardıq. Bu döyüş hamıya ibrət və örnək oldu. Bu zaman gördük ki, bütün gənclərimiz Vətən üçün canından keçməyə belə hazırdır. Gənclərimiz bu xidməti sadiq, ləyaqətli, səvərək yerinə yetirir".

R.Rzayev hərbi xidmətə getməyənlərin sayının barmaqla sayılacaq qədər az olduğu gənclərə tövsiyə edir: "Onları yetişdirən Vətənə sadiq, ləyaqətli şəxsiyyət olub Vətənə olan borclarını ödəsinlər, çünki biz Azərbaycanlıyıq!"

**Bakı Biznes və Kooperasiya Kollecinin Mühasibat uçotu və Maliyyə işi fakültəsinin 2-ci kurs tələbəsi Leyla Zeynalova hərbi xidmətə getməyənlərin gələcəkdə dostlarının, hərbi xidmətini bitirmiş şəxs-**



**lərin yanında utanacaqları fikrini irəli sürür:** "Hərbi xidmətə getməyən oğlanlara səbəbinə görə fikir bildirə bilərəm. Ailəsi 1-qrup əlildirsə və ya səhətində bir problem varsa, təhsili uzun müddətli davam etdirərsə normal qarşılayıram. Hərbi xidmətə getməmək üçün bir səbəb yoxdursa, vətəndaş kimi borclarını yerinə yetirməlidirlər".

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi Regionşünaslıq (Türkiyə üzrə) ixtisasının 4-cü kurs tələbəsi Əli Mösünov 6 bacının tək qardaşı olduğuna baxmayaraq təhsilindən sonra hərbi xidmətə yollanacağını söyləyir:** "Ailədə 7 övladıq, evin həm tək oğlu, həm də sonbeşiyi olmağıma baxmayaraq ali təhsilimdən sonra



hərbi xidmətimi çəkməyimi ön planda tutmuşam. Universitet və digər vasitələr ilə erməni dilini öyrənirəm, çünki düşmənin dilini bilmək düşmənin biləyini sıxmaq deməkdir. Bu Vətənə canımız fəda!"

Ə.Mösünov əlavə edib: "30 ildən çoxdur, bu məsələ müharibə şəraitində yaşayan ölkə üçün önəmli mövzulardan biridir. Əgər Vətən hamınındırsa niyə hər kəs hərbi xidmət çəkməməlidir? Məlum məsələ hərbiyə yararsız şəxsləri bu mövzuya daxil etməməliyik. Bu sualın qarşısında bir çox nüanslar durur ki, bunlar şan-şöhrət, pul və ən əsası qorxaqlıqdır".

Müsahib fikirlərini Xəlil Rza Ulutürkün fikirləri ilə bitirir:

"Vətəndaş olmasa boş şeydir Vətən!
Beş günlük, on günlük güney qarıdır.
Vətən məfhumunun özəyindəki
Vətənin vüqarlı oğullarıdır!"

**Bakı Slavyan Universiteti Filologiya fakültəsinin 1-ci kurs tələbəsi Nurcan Rzayeva kimliyindən asılı olmayaraq hər bir Azərbaycan Respublikası vətəndaşının hərbi xidmətə getməli olduğunu vurğulayır:** "İnsanlar əsgərliyə getməkdən, Vətənə olan borcları yerinə yetirməkdən boyun qaçırırlar. Bu



müxtəlif səbəblərdən ola bilər. Məsələn, elə insan var ki, hərbi xidmətə yarasızdır. Bu halda onun əlindən gələcək çarəsi yoxdur. Elələri də var, gedə biləcəyi halda getmir, məsələn, atası varlıdır. Buna görə boyun qaçırır. Xarici ölkəyə üz tutur. Belə hallarla günümüzdə çox rastlaşıram və pis oluram. Bizim xalqın istər kişisi, istərsə də qadını döyüşə atılmağa hər an hazırdır. Söhbət sözün əsl, mənasında "vətəndaşlıq", "vətənpərvərlik" anlayışlarını dərk edənlərdən gedir. Qeyrətli qardaşlarımız biz qadınların düşmənlə üz-üzə döyüşməsinə icazə verməzlər. Mən Vətən müharibəsi dövründə xalqımızda olan o inamı, əyilməziyi məhz belə qardaşlarımızın sayəsində gördüm".

N.Rzayeva sonda bildirir: "Əsgərliyə yararlı olduğu halda bundan boyun qaçıran şəxslə ailə həyatı qura bilmərəm, çünki Vətən də bir ailədir.Vətənə sahib çıxamayan ailəsinə də sahib çıxmaz!"

Azərbaycan Tibb Universitetinin tələbəsi Həmid Səfərlinin fikirlərinə görə, sağlamlığı ilə bağlı əsgər gedə bilməyən biri gələcəkdə, məsələn, tibbi bitirib onlarla əsgərin həyatını xilas edə bilər. H.Səfərli sağlamlığı ilə bağlı əsgərliyə gedə bilməsə də, ailəsi və özü onun hərbi xidmətə getməyini çox istəyir. "Əsgərliyə getməməyin səbəbi yalnız sağlamlıqla bağlı problem ola bilər. Məsələn, əqli cəhətdən geriliyi olan biri hərbi xidmətə gedib bilərəkdən atəş aça bilər. Bu isə ordunu təhlükəyə salır.

Elmi cəhətdən düşünürəm ki, təhsili bitirib hərbi xidmətə yollanmaq daha məqsədəuyğundur. Ona görə ki, təhsili dondurub əsgər getdikdə oradakı mühit həmin şəxsin bildiklərini unutdura bilər.

Qanuna gəldikdə isə pul verib və yaxud hər hansı yollarla əsgərlikdən qalmağa yaxşı baxmıram. Bu, düzgün deyil. Üzrlü səbəblərə görə də əsgərlikdən qalmaq olar. Belə ki, ailədə tək çalışan həmin şəxs olarsa, xəstəyə baxmaq məcburiyyəti kimi hallar varsa, dövlət müəyyən imtiyazlarla onu hərbi xidmətə göndərmək üçün məhdudiyyətlər tətbiq edə bilər".

**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin 1-ci kurs tələbəsi Türkanə Meşədiyeva hərbi xidməti başlıca vəzifə hesab edərək qeyd edir:** "Əsrlər boyu formalaşan məişət mövzularının sırasında əsgərlik məsələsi xüsusi yer tutur.

Oğullarımızı vətənpərvər böyütmək, sağlam şəkildə həddi-buluğa çatdırmaq hər bir ailənin üzərinə düşən başlıca vəzifələrdəndir. Azərbaycanın mövcud qanunvericiliyi ilə 18 yaşına çatmış şəxslər hərbi xidmətə müəyyən xəstəliklər olduğu halda getmirlər.

Sağlam böyüyən, fiziki problemi vaxtında aradan qaldırılan uşaq, yeniyetmə oğlan gənclik çağında hərbi xidmətdən keçmək üçün heç bir problemlə üzləşməz.

Keçərli səbəbi olmadan hərbi xidmətindən yayınanlar da az deyil. Bu, o demək deyil ki, onlar digər oğlanlardan geri qalırlar, amma əsgər vəzifəsinin verdiyi qürur hissindən məhrum olurlar. Azərbaycan ədəbiyyatına əvəzsin töhfələr vermiş şair, dramaturq H.Cavidin də dediyi kimi, "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü". Yurduna məhəbbət əsirgəməyən şəxsiyyət ailəsinin dəyərini və qədrini bilməz".

T.Meşədiyeva hərbi xidmət vəzifəsini yerinə yetirməmiş şəxslə ailə qurmaq məsələsinə gəldikdə deyir ki: "Düşünmədən "yox" deyərdim. Torpaq, Vətən sevgisi ilə böyüyən, xalqına, millətinə nümunəvi fərd olmaq istəyən, dövlətin rifahi üçün çalışan hər bir oğul hərbi xidmət borcunu yerinə yetirməlidir".

Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin 1-ci kurs tələbəsi Ayxan İbişov qeyd edir ki, hər 18 yaşına çatmış sağlam oğlan əsgər getməli, Vətənə olan borcunu layiqincə yerinə yetirməlidir: "Kişilik məktəbi" sayılan əsgərlik dövrü çox vacib və önəmlidir. Əsgərlik dövründə fərari olmamalı, vətənpərvər olaraq vətənin mühafizəsində durmalıdır. Çox insan düşünür ki, "övladımı əsgər göndərsəm gedib başına hər- hansısa, bir iş gələr", düzdü, bu çox təbii haldır. Hər valideyn istəyər ki, övladı yanında olsun, sağlam olsun, ali təhsilə yiyələnsin və s. Çox vaxt bu, oğlanın özündən də asılı olur. Əsgər getmək istəmir bunun təhlükəli, lazımsız olduğunu düşünür, amma belə deyil. Kimin qismətində nə varsa, o da vaxtı çatanda olacaq. Bu, mənim subyektiv fikrimdir. Əsgərlik dövrü önəmli bir dövrdür. Hər kəs Vətənə olan, borcunu layiqincə yerinə yetirməlidir. Lazım gəldikdə, Vətən uğrunda vuruşmalıdır. Kim unutsa da, Vətən bunu unutmaz!".

**Bakı Dövlət Universiteti magistraturasının Azərbaycan Dilçiliyi fakültəsində təhsil alan Zubeyda Əlizadə qeyd edir:** "Onlara qarşı münasibətim situasiyadan asılı olaraq dəyişir. Əgər məcburi hala görə əsgərliyə gedə bilməyiblərsə, nəyə görə də onlara qarşı mənfi düşüncələrim olsun. Hər halda müəyyən məhdudiyyətləri, xəstəlikləri və s. olan şəxslər xidmətə getsələr də, orada həm bu vəziyyətləri onları narahat edəcək, həm də xidmətin öhdəsindən layiqincə gələ bilməyəcəklər. Onların da öz imkanları daxilində Vətənə, xalqa verəcəkləri töhfələr olacaq. Xidmət, sadəcə, hərbi olaraq məhdudlanmır. O ki qaldı öz istəyi ilə heç bir əsas olmazkən xidmətdən boyun qaçıranlara, təbii ki, elə insanlara qarşı mənfi düşəncələrim yaranar və ailə qurmaq istəmərəm. Qadın psixologiyası, bu, nəsillərdən gələn haldır. Daim yanında güclü kişi istəyir. Özü nə qədər də güclü olsa, zəif bir kişi ilə özünü tamamlanmış hiss etmir. Bu gün hərbi xidmətdən boyun qaçıracaq qədər zəif biri nə dərəcə yaxşı gələ bilər ki? O xalqın içində öz ailəsinin olduğunu nəzərə alsaq, belə çıxır, öz ailəsini də qorumaqdan boyun qaçırır. Heç bir əziyyətə, fədakarlığa gəlməyən bir insan gələcək ailəsi üçün də bir fədakarlıq etməz, əziyyət çəkməz. Bu gün mən özüm belə Vətən uğrunda xidmət etməyə, fədakarlıq etməyə canım bahasına hazıram və bununla fəxr edərəm, o zaman niyə də bunların əksi olan bir oğlanla ailə həyatı qurum!".

**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi Niyaz Hacıyev hər kəsin fikrinə hörmətlə yanaşaraq qeyd edir:** "Yaxşı olar ki, yararlısınızsa hərbi xidmət çəkməyiniz yaxşı olardı. Bu, sənin vətəndaş olaraq vətən qarşısında borcundur. Müəyyən səbəblər daxilində hərbi xidmətə getmirlərsə, bu zaman, əlbəttə, düzgün qərardır. Əsgərliyə getmək istəməyənlərə münasibətim neytraldır. Hazırda xidmətə yollanmaq istəməyənlər, əslində, psixoloji olaraq özlərini hazırlaya bilmirlər. Hərbi xidmətə çağırılanlar bəzən psixoloji olaraq özlərini toparlaya bilmirlər, məncə, burada çətin bir şey yoxdur. Əsas odur ki, gənclər psixoloji olaraq hərbi xidmətə hazır olsunlar".

***Çinarə Muradova***

# ABŞ-ın Qafqazda yürütdüyü məsuliyyətsiz
# İMPERİALİST SİYASƏT

***USAİD rəhbəri Samanta Pauerin sosial şəbəkə hesabında etdiyi qeyd Cənubi Qafqazda sülh prosesinə xələl gətirən təxribat xarakterli ehyamdan başqa bir şey deyil. Paytaxt Bakıda qalmaqalların mərkəzində olan USAİD maliyyələşmə sayəsində aranı qızışdırmaq istəsə də dəfələrlə bunun qarşısı alınıb. Amma görünən odur ki, Pauer hələ də məsuliyyətsiz davranışlarından əl çəkmək niyyətində deyil və çirkin niyyətlərin reallaşdırılması üçün Ermənistandan istifadə edir və mövcud vəziyyət onun üçün münbir şərait hesab olunur.***

Amerika hökumətinin guya humanitar təşkilat kimi tanıtmaq və sırımaq istədiyi USAİD-in rəhbəri Samanta Pauerin sərt xarici siyasət xəttinin ilk baxışda qəribə görünməsində təəccüblü heç nə yoxdur. Çünki Pauer yardım adı ilə təkcə humanitar məsələlərə deyil, təhlükəsizlik məsələlərinə də, hərbi məsələlərə də burnunu soxmaqdadır. O, yalnız Dövlət Departamenti ilə deyil, ABŞ Təhlükəsizlik Şurası ilə də koordinasiyalı fəaliyyət göstərdiyini belə gizlətmir. Ələlxüsus da Pauerin son tvitindən bəlli olur ki, onun məqsədi Qafqazda sülh prosesini pozmaqdır. Onun fəaliyyətinə nəzər saldıqda bunu aydın şəkildə görmək mümkündür və hər halda ermənipərəst mövqeyi ilə tanınan bu adamın ədalətli yanaşma, haqqın tərəfində olmasını da heç kim ağlına belə gətirə bilməz. Çünki bəyanatlarında haqsız olmasına baxmayaraq ancaq erməni maraqlarının müdafiəsi ön planda durur və onun üçün hansısa ali dəyərlər zərrə qədər əhəmiyyət kəsb etmir. Belə çıxır ki, ABŞ məhz Qafqazda tamamilə məsuliyyətsiz siyasət yürütməkdən çəkinmir və buna görə də Pauer məsuliyyətsiz davranışlarına sərhəd qoymaq niyyətində görünmür.






"İki ay əvvəl Azərbaycanın Dağlıq Qarabağdakı hərbi əməliyyatı nəticəsində 100 mindən çox insan evlərini tərk edərək qonşu Ermənistana köçmək məcburiyyətində qalıb", deyən Samanta Pauerin fikirləri əlbəttə ki, həqiqətə uyğun deyil və bunu ermənilər özləri də yaxşı bilirlər, elə onun özü də yaxşı bilir. Amma bilə-bilə bu fikirləri ortaya atması onu deməyə əsas verir ki, USAİD rəhbəri sadəcə olaraq, problem yaratmaq və onu süni şəkildə şişirtmək niyyətindədir. Samanta Pauer çox yaxşı bilir ki, Azərbaycan tərəfinin antiterror tədbirləri erməniləri köç etməyə məcbur etməyib, belə bir məqsəd də olmayıb və köç etmələri bilavasitə erməni millətçilərinin qırnaqarası "humanitar fəlakət" görüntüsü, şousu yaratmaq niyyəti ilə, özü də öz istəkləri ilə olub. Azərbaycan Ordusunun, yaxud da hansısa əsgərimizin belə, erməni əsilli bircə dənə dinc sakini qovduğu barədə kimsədə bir dənə də olsun sübut, fakt yoxdur. Yaxşı bilir ki, Azərbaycan öz ərazisini terrorçulardan, təxribatçılardan, qonşu ölkənin qanunsuz silahlı dəstələrindən təmizləyib və erməni əsilli dinc sakinlərlə heç kimin işi olmayıb. Onu da bilir ki, rəsmi Bakının belə bir qərar verməsi, öz ərazilərində belə tədbir görməsi beynəlxalq hüququn norma və prinsiplərinə də zidd deyil. Elə isə Paueri qane etməyən, ədalətsiz, haqsız, faktları təhrif edərək danışmağa vadar edən nədir və bəhanəsi nədən ibarətdir? Ən çox düşündürücü sual isə ondan ibarətdir ki, USAİD-in bu xanım rəhbərinin niyyəti, məqsədi nədir? Məgər bilmirmi ki, belə qıcıq doğuran, separatçıları qızışdıran fikirləri təhlükəsizliyə mənfi təsir edir? Çox yaxşı bilir və bunu bilərəkdən edirsə, deməli, regionda təhlükəsizliyə xələl gətirə biləcəyini heç vecinə də almır. Bütün bunlar onun özünün də, ABŞ kimi bir ölkənin məsuliyyətsizliyini, məsuliyyətsiz siyasət yürütdüyünü bir daha təsdiq edir.

"ABŞ Dağlıq Qarabağdan olan etnik erməniləri dəstəkləməkdə davam edir", deyə öz tvitində fikir bildirən Samanta Pauer separatçıların baş qaldırması üçün çalışırmı? Məqsədi təxribatçıları, terrorçuları ruhlandıraraq, münaqişəni yenidən qızışdırmaqdırmı? Əgər o həqiqətən də köç etməyə məcbur qalmış insanların taleyi ilə maraqlanan olsaydı, ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilərin etnik təmizləmə, soyqırım siyasətinin nəticəsi olaraq, ölüm və işgəncə təhdidləri ilə üz-üzə qalaraq, öz doğma yurd-yuvalarını tərk edən və əsrin üçdə birinə yaxın müddət ərzində köçkünlük həyatı yaşamağa məcbur olan bir milyondan artıq azərbaycanlının taleyi ilə bircə dəfə də olsa maraqlanardı. Amma nəinki həmin o bir milyon insanı dəstəkləmək barədə öz tvitində fikir paylaşıb, heç onlar barədə maraqlanmayıb da. Sual oluna bilər ki, bir milyon insanın taleyinə laqeyid olan birinin yüz min insanın taleyi ilə maraqlanması inandırıcı ola bilərmi? Əlbəttə ki, olmaz. Deməli, o sadəcə aranı qızışdırmaq üçün belə fikirləri ortaya atır və bunun nə ilə nəticələnəcəyini nəzərə belə almır. Hər halda, ermənilərin hər dəfə qızışdırıldıqdan sonra başlarına nələrin gəldiyini bilən biri, yenə də onların fəlakətlərlə qarşılaşacaqlarını nəzərə almalı idi, əgər həqiqətən də ermənilər onu maraqlandırırdısa. Məsələ burasındadır ki, bu yaxınlarda İrəvana uçaraq, erməni baş nazir Nikol Paşinyana hərbi yardım vəd edən, regionda sülh prosesini sabotaj etmək üçün öz tvitində lazımsız və məsuliyyətsiz ifadələrə yol verən bir adam heç də bu məsələdə maraqlı görünmür. Əgər belə görünmürsə, deməli, nə USAİD rəhbəri, nə də ABŞ hökuməti baş verə biləcək hadisələri hesaba belə almaq niyyətində deyil. Bu da o deməkdir ki, tamamilə məsuliyyətsizlik edilir və məsuliyyətsiz siyasət yürüdülür.

Liviya, Suriya və Yəmənə Amerikanın müdaxilələrinin də humanitar zəmində olduğunu Samanta Pauer utanmadan və həyasızcasına təbliğ edib. Məsələ burasındadır ki, sadalanan həmin ölkələrin mənzərəsi bunların humanitar zəmində olduğunu deməyə qətiyyən əsas vermir. Çünki edilən müdaxilələr çox böyük fəlakətlərə səbəb olub və bu barədə bütün dünya ictimaiyyəti çox yaxşı bilir. Təsadüfi deyil ki, dünya miqyasında tanınmış siyasətçilər, hətta amerikalı politoloqların özləri də etiraf edirlər ki, həmin müdaxilələrin "humanitar" deyil, qalan bütün zəmində olduğunu demək mümkündür. Ona görə ki, həmin müdaxilələr insan itkilərinin kəskin artmasına gətirib çıxarıb, qaçqın böhranını daha da kəskinləşdirib, ekstremist qruplar üçün imkanlar yaradıb. Elə indi də Qafqazda proseslərə eyni şəkildə məsuliyyətsizcəsinə müdaxilə edilir, ekstremist qruplar üçün imkanlar yaradılır və məhz məsuliyyətsiz siyasət yürüdülməsinin nələrə səbəb olacağı barədə qətiyyən düşünülmür.

Qərbin məsuliyyətsiz siyasət yürütməsinin dəfələrlə şahidi olmuşuq və qonşu ölkələrdə baş verən hadisələr qətiyyən unudulacaq deyil. Gürcüstanda aranı qarışdıran ABŞ indi nə bu ölkəni vecinə almır, nə də zindanda xəstəlikdən əziyyət çəkən Saakaşvili ilə maraqlanmır. Ukraynanı Rusiyaya qarşı qızışdıran amerikalılar bir müddət maddi və hərbi yardımlar etdikdən sonra artıq orada şəhərlərin dağılmasını, viran qalmasını sadəcə olaraq kənardan izləyirlər. Çünki dağılan ABŞ şəhərləri deyil, Ukraynanın şəhərləridir və hətta müharibə bu gün bitsə belə, onların bərpası məsələsinin özü də amerikalıları maraqlandırmayacaq. Əfqanıstanda da bir müddət özünün varlığını göstərən ABŞ-ın "bərk ayaqda" həmin ölkəni Talibana "bağışlayıb" aradan çıxdığı da yaddan çıxan deyil. Bütün bunların fonunda görürük ki, ABŞ tamamilə məsuliyyətsiz siyasət yürüdür və sonda ölkələrin taleyi ilə bağlı rəsmi Vaşinqton zərrə qədər də narahatlıq keçirmir. Sadalanan halların sayını artırmaq da olar, çünki faktlar, arqumentlər yetərincədir, amma qeyd olunanlar özü də Qərbin məsuliyyətsizliyi, ABŞ tərəfindən yürüdülən məsuliyyətsiz siyasəti təsdiq etmək, isbatlamaq üçün kifayət edir. İndi belə bir məsuliyyətsiz siyasət yürüdən ölkə Azərbaycanın nə edəcəyini gözləyir, amerikalılar onlara etibar ediləcəyi qənaətində ola bilərmi? Ermənistan kimi marionet ölkədən fərqli olaraq, Azərbaycanın heç zaman ABŞ-ın mövqeyindən çıxış etməməsi həmin ölkə üçün görünür "xoş" gəlmir. Məhz Vaşinqtonun "xoşuna gəlsin deyə" rəsmi Bakının Rusiya əleyhinə olması ölkəmiz üçün qəbuledilməzdir və ölkəmiz öz milli maraqları çərçivəsində siyasət yürüdür, xüsusən də, qonşu dövlətlərlə münasibətlərinə həssas yanaşır. ABŞ "bəyənsin" deyə, qonşu dövlətə, Rusiyaya qarşı ölkəmiz öz mövqeyini dəyişərək, Vaşinqtonun mövqeyindən niyə çıxış etməlidir? Axı bizə qonşu olan ölkələrdən biri də Rusiyadır və ABŞ niyə çalışır ki, ölkəmiz həmin o qonşu ölkə olan Rusiya ilə münasibətlərimizi pozsun? Əslində, bu qədər oyunlarında ABŞ-ın məqsədi elə budur, amma belə məsuliyyətsiz yanaşması, Ermənistanın timsalında digər ölkələrdən fərqli olaraq, Azərbaycan üçün qəbul oluna bilməz.

Amerika administrasiyasının Cənubi Qafqazda yürütdüyü siyasət, daha doğrusu, etdiyi manipulyasiyalar region xalqlarının maraqlarına ziddir və ancaq zərər vəd edir. Diqqətə çatdıraq ki, Samanta Pauerin uyğunsuz tvitindən də əvvəl, daha dəqiq desək, 15 noyabr tarixində Konqresdə Cənubi Qafqazda sülh prosesi ilə bağlı Amerika siyasətinin absurd və məntiqsiz olan imperializmini parlaq şəkildə nümayiş etdirən dinləmələr keçirilib. Həmin dinləmələrdə ABŞ dövlət katibinin köməkçisi "yardımın dayandırılması" ilə Azərbaycanı təhdid etməyə cəsarət edib və Zəngəzur dəhlizinin yaradılmasından, eləcə də tranzit məsələlərində İranla təmaslardan imtina edilməsi "tələbi" ilə çıxış etmək kimi bir axmaq fikir səsləndirilməsini özünə rəva bilib. Maraqlıdır, Vaşinqtonun indi Bakıdan istədiyi odur ki, həm Naxçıvanla ölkənin qalan hissəsi arasında etibarlı əlaqə planlarından, həm də Cənubi Qafqazın inkişafı ilə bağlı bütün ümidlərdən əl çəksinmi? Yaxud, amerikalılar bu istəklərinin müqabilində "kömək" göndəriləcəyi şərtini qoymaq niyyətindədirlərmi? Yəqin ki, Amerikanın sülh müqaviləsi üzrə danışıqların növbəti raundundan Bakının imtina etməsinin səbəbini amerikalılar başa düşmüş oldular. Təsadüfi deyil ki, Samanta Pauer də təkrarən dərhal meydana çıxmalı oldu və absurd fikirlər səsləndirərək suyu bulandırmağa çalışdı. Amma Azərbaycan heç nəyə məhəl qoymadan sülhün ikitərəfli əsasda bağlanmasını israr etməkdədir. Çünki bəlli oldu ki, Qafqazda sülhün möhkəm, dayanıqlı və sabit olması üçün müqavilə bağlanılması ikitərəfli əsasda olmalı və region ölkələrinin maraqlarını əks etdirməlidir. Hansısa vasitəçinin iştirakı ilə bağlanılan müqavilə isə, tərəflərin, eləcə də region ölkələrinin deyil, vasitəçinin, ələlxüsus da Qafqazda məsuliyyətsiz imperialist siyasət yürüdənlərin maraqlarını əks etdirə bilər və bütün bunlar ölkəmiz tərəfindən ciddi şəkildə nəzərə alınmaqdadır. Təkcə Azərbaycan xalqı deyil, ümumilikdə, Cənubi Qafqaz xalqlarının hamısı özləri üçün yeganə etibarlı gələcəyi Qərbin və ya Şərqin fövqəlgüclərinin təminatlarına bağlamadan, yalnız birlikdə qura biləcəklərini başa düşməli, qəbul etməlidirlər. Başa düşməli və qəbul etməlidirlər ki, ABŞ-ın timsalında hansısa fövqəl dövlətin iyanə, yardım bəhanəsi ilə məsuliyyətsiz imperialist siyasət yürüdərək, regionu təhlükələrə sürükləməsinə deyil, qonşu dövlətlərin öz aralarında mehriban qonşuluq siyasəti yürütməsinə yol açmaq gərəkir və təhlükəsizliyin də, inkişafın da yolu budur.

***İnam Hacıyev***

# Evi tez-tez dəyişməyin mənası varmı?..

**Ev nədir? Daş-kərpiclə tikilən, dörd divardan ibarət mənzildir. Lakin bu dörd divarın içərisində insanın başqa heç yerdə tapa bilməyəcəyi bir istilik var. Hara gedirsənsə, get, o istilik səni geri çağırır. Bu divarların arasında bir rahatlıq var. Başqa bir yerdə tapa bilməyəcəyin rahatlıq.**

Ev hər bir insanın sığındığı "yuvadır". Burada bir ailə də var. Bu ailə üzvlərinin hər biri üçün həmin dörd divarın arasından əziz, rahat bir məkan yoxdur. Odur ki, səhər çıxıb, axşam evə tələsirsən. Hansı bir iş, gəzinti, alış-veriş üçün gedirsənsə, dönəcəyin yer səni səsləyən evindir. Çünki səni orada isti ocağınla yanaşı, həm də ailən-həyat yoldaşın, övladların, onların şirin söhbəti, dörd divarın arasını dolduraq şaqraq gülüşlər gözləyir. Bir-birinə sözünü açıq ürəklə deyən,



məsləhətləşən bir ailə. Bir evin içərisinə sığınan, onu doğma yuvası bilən bir ailə...

## Evlərini tez-tez dəyişənlərə...

Müasir dövrümüzdə evini tez-tez dəyişən insanlarla qarşılaşırıq. Onlar təbii ki, başqalarından fərqli-yəni bunu etməyə imkanı olanlardır. Hansı ki, adamlar var ki, bir ömür çalışır, lakin kirayələrdən qurtula bilmir. Ailələr var ki, övladını ev səbəbindən evləndirə bilmir. Çünki nə ev ala bilmir, nə də torpaq alıb ev tikmək imkanı yoxdur.

Lakin elələri də var ki, bəlkə də 5-10 evi var. Bu evləri isə tez-tez dəyişir. Başa düşüləndir ki, əksər insan yayı bağ evində, qışı başqa bir evində yaşayır. Söhbət bundan



getmir. Yaylı-qışlı ev dəyişənlər var ki, bəlkə də il ərzində onu bir neçə ünvanda axtarmalı olursan.

Belə insanlar bəlkə də bizim yazımızı oxusalar, deyərlər ki, bircə bu işə qarışmağınız qalmışdı. Özümüz bilərik, hansı evə köçürük, hansı evdə yaşayırıq. Lakin biz onların tez-tez köçməsindən əsla narahat deyilik. Sadəcə tez-tez köçməyin heç də yaxşı olmayan tərəflərindən danışmaq istəyirik.

Baxmayaraq ki, köçmək heç də asan iş deyil, lakin bunu edən insanlar var, xüsusilə də kişilər. Bir evi alır, təmir etdirir, daha sonra başqa bir ev alır, o evə köçür, köhnəni baha qiymətə kirayə verir. Beləliklə bir neçə ev dəyişməklə həyatına davam edir. Bəs bu tez-tez köçmələrin nə ilə nəticələndiyi barədə necə, fikirləşirmi?

## Ev düşərli-düşərsiz olur

Hər birimiz həyatımızda dəfələrlə evin düşərli-düşərsiz olması qənaətinə gəlmişik. Ev var ki, köçən bir gündən hiss edirsən ki, evin ruzi-bərəkəti gündən-günə artır. Bu evdə tez-tez yeni, xoş hadisələr, xoşbəxt günlər yaşanır. Bütün bunlarla yanaşı, həm də evin yerləşmə səmti də var ki, evə günəşin düşməsini şərtləndirir. Bu cür evlər daha gözəl evlər hesab edilir. Çünki atalar da deyir ki, günəş düşən evə həkim girməz.

Belə bir evi insan qoyub necə yenisinə köçə bilər? Lakin köçənlər var. Nəyə görə köçürlər? Daha çox pul qazanmaq üçün. Axı dövrümüzdə ev biznesi ilə məşğul olanlar saysızdır. Bəs yeni evdə köhnə evdə olduğu





kimi, bütün işlər yaxşı gedirmi? Qonşular necə, buradakılar kimi səmimi ola bilirmi?

Bütün bunlar haqqında danışacağıq. Lakin gəlin elə birinci köçdən danışaq. Etiraf edənlər çox olar ki, dünyada köçdən əziyyətli iş yoxdur. Kənardan nə qədər kömək olsa da, lakin ən zəhmətli iş evin qadınının üzərinə düşür. yeni evi nizama salmaq, əşyaları yerləşdirmək, pal-paltarı dolaba yığmaq, qab-qacağın yerini müəyyən etmək günlərlə vaxt aparır. Belə isə tez-tez ev dəyişdirən kişilər görəsən qadınları düşünürlərmi? Yoxsa, həmin qadınlar kişilərin bu evdəyişmə sevdasından çoxdan bezib, sadəcə səslərini çıxarmırlar?

## Evdəyişmədə ən çox zərbə alan uşaqlardır

Tez-tez evdəyişmədə ən çox sarsılan, əziyyət çəkən uşaqlardır. Valideynlər bu hobbiləri ilə uşaqlarına nə qədər psixoloji sarsıntı yaşatdıqlarının fərqinə varırlarmı? Bir neçə dəfə təsadüf etmişəm, yeni köçən ailələrin uşaqlarına. Onlar aylarla özlərinə gələ bilmirlər. Bir mühitdən başqa bir mühitə düşmək olduqca çətin olur. Axı onlar köhnə evlərində məhəllə uşaqlarını, dostlarını, sinif yoldaşlarını qoyub gedirlər. Valideynlərinin pul qazanmaq həvəsi onları dostlarından, doğma mühitdən ayırır. Və beləliklə, həmin uşaqlar aylarla, bəzən ildən artıq zaman kəsiyində özlərinə gələ bilmirlər. Maraqlıdır, görəsən, valideynlər bunu hiss edirmi? Uşaqların düşdüyü vəziyyət onları narahat edirmi? Bəlkə də hiss edirlər, lakin gəlir əldə etməyin şirinliyi, "əşi, uşaqdır, uyğunlaşar", deyib keçməklə bitir.

Lakin bu tez-tez köçmələr uşaqlarımızın psixologiyası, sağlamlığı üçün təhlükəlidir. Bir sözlə, köçdə ən çox əziyyət çəkən uşaqlardır.

## Qonşu həmişə yaxşı olmur

Gündəlik həyatımız üçün ən vacib şərtlərdən biri də qonşudur. Çünki qonşu yaxşı olmasa, insanın günü ah-vay ilə keçir. Baxmayaraq ki, şəhər yerlərində bir o qədər qonşuluq əlaqələri yoxdur, günlərlə qonşunu görən də olmur. Lakin yaxşı qonşu ilə hər zaman qarşılaşmaq da olmur.

Məsələn, qonşular var ki, tullantıları evindən çıxarıb, aparıb atmaq əvəzinə, saatlarla, günlərlə qapısının ağzına qoyur. Sən də bunula qarşılaşdığın üçün narahat olursan. Deyirsən, yenə də mənası olmur. Qonşu var ki, yuxarıda elə bir həngamə çıxarır ki, az qalır çılçıraq yerindən qopub aşağı yuvarlansın. Gedib deyirsən, 1-2 saatdan sonra yenə həmin həmindir. Qonşu var ki, televizora elə səs verir ki, öz evində rahatlıq tapa bilmirsən. Qonşu var ki, evini kirayə verdiyi adamlar elə hərəkətlər edir ki, ta evindən köçəcək olursan.

Lakin qonşu da var ki, illərlə qonşu olursan, evindən nə bir artıq səs gəldiyini eşidir, nə onunla bir problem yaşayırsan. Hələ get-gəlin də olur. Qarşıda bu münasibətlər qohumluq əlaqələrinə də çevrilir. Özünə yaxın dost, rəfiqə qazanırsan.



Beləliklə, qonşu münasibətləri heç də asan məsələ deyil. Odur ki, yeni evə köçəndə hər kəs Allahdan özünə yaxşı qonşular arzulayır. Lakin bu arzular reallaşa da bilir, bunun əksinə də olur. Yaxşı qonşuları qoyub yeni evlərə köçmək isə ən ağılsız hərəkətdir. Dünyada hər şeyin maddiyyat olmadığını düşünən zaman yaxşı qonşu anlayışı da çıxır ortaya. Belə olan halda isə, necə deyərlər, ağıllı adam yaxşı qonşunu qoyub heç yerə getməz.

## Tez-tez dəyişəndə ev ocaq ola bilmir

Deməli, evdəyişmədə ən əsas olan bir neçə məsələ - evin düşərli, düşərsiz olması, köçməyin çətinliyi, ev dəyişmənin uşaqlara vurduğu zərbələr və qonşuluq münasibətləri haqqında danışdıq. Elə köçün əsasını da bunlar təşkil edir. Və hər biri də ayrı-ayrılıqda vacib olan məsələdir. Belə isə tez-tez ev dəyişmək nə dərəcədə doğrudur? Bunun maddi tərəfini bir kənara qoyub, mənəvi tərəfini nəzərə alan varmı? Yoxsa, maddiyyat mənəviyyatı elə üstələyib ki, bu vacib amillərə nəzər salan yoxdur...

Bütün bunlarla yanaşı, daha vacib bir məsələdən də danışmaq yerinə düşər ki, biz evə həm də ocaq deyirik. Ev, bəli, yanar ocaqdır. Çünki orada nəfəs var. Qapısı hər gün açılır-örtülür. Bu evdə xatirələr, ötən xoş günlər var. Ona görə də orada bir ocaq istisi də var ki, evimizə ocaq deməyə əsas verir. Lakin tez-tez dəyişilən evlərdə bu ocaq san-



ki yanır, sönür. Necə ki, ocaq çırtaçırtla yanır, ətrafa istilik saçır, bu zaman adama çox xoş gəlir. Eləcə də evin ocaq olmasını şərtləndirən amil onun uzunömürlüyündədir. İllər lazımdır ki, ev ocağa çevrilsin.

Biz nə edirik, ocaq şirin-şirin yanmağa, ətrafa xoş bir isti yaymağa başladığı anda əlimizə dırmıq, bel alıb onu dağıdır, çırtaçırtla yanmasına imkan vermirik. Belə olanda isə nə evdən, nə də ocaqdan söhbət gedə bilməz. Elə tez-tez köçməkdən bezən xanımlar da, dostlarından ayrı düşdüyü üçün əziyyət çəkən uşaqlar da həmin yeni-yanmayan, tüstüləyən ocaqda köçməyin tərəfdarı olan kişilərdən fərqli olaraq heç bir istilik tapa bilmirlər. Deməli, evləri ocağa çevrilə bilmir...

Belə isə tez-tez ev dəyişməyin bir mənası varmı?..

***Mətanət Məmmədova***



# Qarabağ Universiteti

Dövlət başçısının Sərəncamına əsasən, Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən üç ay ərizində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın ilk karvanı olan Ağalıya edilən köç, eləcə də, digər ərazilərimizə yol alan köçlər bunu deməyə əsas verir. Beynəlxalq hava limanlarının - Füzuli Beynəlxalq hava limanının, Zəngilan Beynəlxalq hava limanının istifadəyə verilməsi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməsindən xəbər verir. Bu Azərbaycanın gücünün göstəricisidir. Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir.

Məlumdur ki, ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. I Dövlət Proqramına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

### YÜKSƏKİXTİSASLI KADRLARIN HAZIRLIĞINI HƏYATA KEÇİRƏN ALİ TƏHSİL MÜƏSSİSƏSİNİN TƏŞKİLİ ZƏRURİDİR

Prezident İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılır. Nazirlər Kabinetinə iki ay müddətində Qarabağ Universitetinin nizamnaməsini təsdiq etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb. Nazirlər Kabineti, həmçinin universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görəcək, universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll edəcək.

Sərəncamda qeyd olunur ki, əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olub. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb.

### YENİ MÜASİR ŞƏHƏR VƏ KƏNDLƏR SALINIR

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün ən önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir.

Əlbəttə ki, infrastruktur layihələrin həmin ərazilərdə həyata keçirilməsi xüsusi önəm daşıyır. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülər. Məlumdur ki, Azərbaycan Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə hava limanları ilə yanaşı, avtomobil və dəmir yollarının tikintisi işlərinə başlanıldı. İşğaldan azad olunan müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıldı. Enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və lazımı həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Eyni zamanda, ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər və mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkil edilmişdir. Görülən işlər əhalinin təhlükəsizliyin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi müəyyənləşdirilmiş hədəflər sırasındadır. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yeni müasir şəhərlərin və kəndlərin salınması ilə əhalinin layiqli həyat şəraitini təmin edir. Bütün görüləcək işlərin əsasında işğaldan azad olunan ərazilərimizi qısa bir zamanda müasir və inkişaf etmiş bir məkana çevriləcəkdir.

Vətən müharibəsinin yaratdığı ən mühüm imkanlardan biri kimi regionda modern universitet modeli bənzərsiz nümunəsi olacaq. Qarabağ Universiteti Azərbaycanın rəqəmsal transformasiyasını təmin edəcək insan kapitalını formalaşdıracaq ali təhsil müəssisəsi kimi həyatımıza daxil olacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Zibillə dolu piyada keçidi - GÜNAHKAR KİMDİR?

*QURUM RƏSMİSİ AÇIQLADI*



Külli miqdarda vəsait xərclənməsinə baxmayaraq məsuliyyətsizlik ucbatından yararsız hala düşən piyada keçidi zibilxanani xatırladır. Keçiddə piyadalardan çox zibil, tullantı qalıqlarına, siqaret kötüklərinə və kiçik polietilen torbalarına rast gəlinir. Sözügedən piyada keçidi Abşerondakı keçidlərdən biridir. Yeraltı keçiddə natəmizlik hökm sürdüyündən sakinlərdə məcbur qalıb həyatlarını təhlükəyə ataraq avtomobillərin sürətlə hərəkət etdiyi yoldan keçirlər. Bəs,bu natəmizliyin aqibəti necə olacaq? SİA mövzu ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin şöbə rəisi Anar Nəcəflinin fikirlərini öyrənib.

Onun sözlərinə görə, həmin piyada keçidinin çirkləndirilməsi agentliyi narahat edən məsələlərdən biridir: "Baxmayaraq ki, həmin keçid mütəmadi olaraq təmizlənir. Bir gün öncə təmizlənən keçid səhəri gün artıq yenidən çirkləndirilib. Bu da həmin keçiddən istifadə edən bəzi vətəndaşlarımız tərəfindən olunur. Biz bir daha vətəndaşlardan xahiş edirik ki, piyada keçidindən istifadə edərkən keçidi çirkləndirməsinlər və müəyyən hissələrini sıradan çıxarmasınlar. Aidiyyəti üzrə biz yenə məlumat verəcəyik ki, keçiddə əsaslı təmizlik işləri həyata keçirilsin".

*Özləm Quliyeva*



Elçin Bayramlı

## Qazdan ayıq olaq

**Qış mövsümünə keçid zamanı aktuallaşan məsələlərdən biri də qaz partlayışları və dəm qazından zəhərlənmələrlə bağlıdır. Son illərdə baş vermiş qaz partlayışlarında onlarla vətəndaşımız dünyasını dəyişib, neçə evlər, binalar dağılıb. Araşdırmalar göstərir ki, bunun səbəbi qaz sistemlərində baş verən sızmalar, qeyri-standart qaz cihazlarından istifadə və qaz qurğuları ilə davranış qaydalarının kobud pozulmasıdır. Bir çox hallar da var ki, partlayışlara, sızmalara səbəb olur- məsələn, uzun illər istifadə olunan boruların, krantların çürüməsi, sıradan çıxması və buna fikir verilməməsi.**

Bundan başqa, dəm qazından zəhərlənmələr də hər il onlarla vətəndaşımızın həyatına son qoyur. Bunun da səbəbi hamam otaqlarında, mətbəxdə və qaz cihazlarının qoyulduğu digər otaqlarda hava çıxışlarının olmaması və ya tutulması, qaz detektorlarının qoyulmamasıdır. Əksər abonentlər hava çıxışlarını və qaz borularını yoxlatmadığından, qaz sistemi ilə təlimata uyğun davranmadığından faciələr baş verir. Məsələn, bir çox mənzillərdə, evlərdə su qızdırıcı qaz cihazları hamamda quraşdırılır, amma hamamın hava çıxışı yoxdur, varsa belə, tutulub, üstəlik qapıda kiçik yarıqlar qoyulmayıb. Nəticədə, heç iyi-qoxusu olmayan dəm qazından zəhərlənmələr və ölümlər baş verir.

Qeyd etməliyik ki, son illərdə qazdan başqa verən prtlayışlar və dəm qazı zəhərlənmələri hallarının böyük ölçüdə azalması Azəriqaz və medianin bu istiqamətdə birgə və davamlı apardığı maarifləndirmə nəticəsində mümkün olub. Buna baxmayaraq hələ də belə hallar baş verir və buna tamamilə son qoymaq üçün bu ildən etibarən "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Prezident Fərmanına uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azəriqaz İB tərəfindən evlərdə və obyektlərdə texniki müayinələrin aparılmasına başlanıb.

Texniki müayinə zamanı sayğacdan başlayaraq bütün qaz sistemi yoxlanır. Sayğacın normal işlədiyi, qaz xətlərində sızmaların olmadığı, qaz cihazlarının standartlara uyğun olduğu, hamam və mətbəxdə hava çıxışlarının təmiz olduğu aşkar olunarsa, akt tərtib olunur və abonentə xidmət davam etdirilir. Əgər hər hansı bir nöqsan aşkarlanarsa, bunun aradan qaldırılması üçün abonentə 1 ay vaxt verilir. Nöqsanlar aradan qaldırıldıqdan sonra təkrar yoxlama üçün qaz istismar idarəsinə müraciət edilməlidir. Əgər yoxlama zamanı təhlükəli vəziyyət aşkar olunarsa, bu halda qaz təchizatı dayandırılacaq və problem aradan qaldırıldıqdan sonra bərpa olunacaq.

Yeni şərtlərə görə, mənzillərdə və ya obyektlərdə 2 detektor olmalıdır- biri mətbəxdə qaz sızmasını aşkarlayan metanahəssas cihaz, digəri isə vanna otağında dəm qazını aşkarlayan cihaz. Bu cihazlar işlək vəziyyətdə olmalı və təhlükə zamanı səs və işıq siqnalları verməklə dərhal ümumi qaz klapanını bağlamalıdır.

Texniki müayinə ödənişsiz həyata keçirilir, lakin aşkar olunan nöqsanların aradan qaldırılması, qaz detektorlarının quraşdırılması xərcləri abonent tərəfindən ödənilməlidir.

Azəriqaz-ın rəhbər şəxsləri mütamadi olaraq televiziya və radio proqramlarında, sosial şəbəkələrdəki səhifələri üzərindən canlı yayımlarda və hər həftə keçirilən "Açıq qapı" aksiyalarında bütün sualları cavablandırır, abonentlərin şikayətlərinin həlli üçün çalışırlar.

Qaz təchizatı kommunal sistemlər arasında ən təhlükəlisidir, burada adi diqqətsizlik, məsuliyyətsizlik çox ağır faciələrə gətirib çıxara bilir. Ona görə də, qazdan ayıq olmalıyıq. Evimizdə, obyektimizdə qaz təhlükəsizliyini təmin etməli, qaz cihazları ilə təlimata uyğun davranmalıyıq. Hər hansı bir problem aşkar olunduqda qaynar xətlərə (104, 185) və ya qaz istismar idarələrinə müraciət etmək lazımdır. Qazdan ayıq olmasaq, bu təkcə özümüzün deyil, başqalarının da həyatı bahasına başa gələ bilər. Ona görə də, bu məsələdə məsuliyyətli və diqqətli olmalıyıq.

# Fransa Ermənistanı süquta aparır

Dünyanın əksər bölgələrində baş verən müharibələr, münaqişə ocaqları dünyamızın təhlükə qarşısında olduğunu deməyə əsas verir. Vəziyyətdən çıxmağa, problemlərin həll edilməsinə səylər də göstərilmir. Çünki elə güc mərkəzləri var ki, silahlarını satmaq imkanı qazanırlar, elələri də var ki, torpaqlar əldə etməklə həmin torpaqların sərvətlərini talan etməyə maraq göstərirlər. Bu halda uşaqların, yaşlı insanların kütləvi şəkildə həyatlarını itirmələri onları maraqlandırmır. Yaşayış binalarının, min illər yaşı olan mədəniyyət nümunələrinin, tarixi abidələrinin dağıdılması onlar üçün əhəmiyyətsiz görünür. Maraqlar və müəyyən halda laqeydlik dünyanın təlatümlər içində olmasına gətirib çıxarır. Vəziyyətin ağırlığı o dərəcədə kritik xarakter alıb ki, bəzi siyasi, hərbi ekspertlər üçüncü dünya müharibəsinin qaçılmaz olduğunu qeyd edirlər. Təbii ki, üçüncü dünya müharibəsinin baş verməsi və nüvə silahının işə düşməsi bəşəriyyətin sonu ola bilər. Bunu dünyanın aparıcı dövlətləri bilsələr də, vəziyyətin stabilləşdirilməsi üçün lazımi addımlar atmırlar. Əksinə, ABŞ və Avropanın İsrail-HƏMAS müharibəsində birincinin yanında yer almaları vəziyyətin gərginləşməsinə xidmət edən amillərdəndir. Xüsusilə də, Fransa prezidenti Makronun çağırılmamış qonaq qismində Təl-Əvivdə peyda olması və oradan ampluasına uyğun









açıqlamalarla çıxış etməsi və hədələyici bəyanatlar səsləndirməsi dünyaya meydan oxumaq kimi qiymətləndirilir. Çünki Fransa açıq şəkildə müstəmləkə siyasəti aparan və terroru dəstəkləyən, maliyyələşdirən dövlətlər sırasında yer alır. Bu baxımdan, belə bir dövlət dünyada sülhə və təhlükəsizliyə heç bir halda töhfə verə bilməz.

Bu yaxınlarda Bakıda keçirilən 14 ölkədən, eləcə də Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdən olan nümayəndələrin iştirak etdiyi "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda konfransda müstəmləkə altında əzilən xalqların nümayəndələri Fransanı müstəmləkəçiliyə son qoyulmasına çağışı etdilər. Qvadelupanın Azadlığı Uğrunda Xalq İttifaqının nümayəndəsi Jan Jakob Bisep beynəlxalq konfransda çıxışı zamanı bildirdi ki, dörd əsrdir ki, biz Fransanın təzyiqi altında yaşayırıq: "Ölkəmiz Fransanın müstəmləkəçiliyi dövründən bəri öz haqları uğrunda mübarizə aparır. Fransızlar bizim ərazilərdə işləyir, yerli əhali isə işsizdir. Azadlığımız üçün mitinqlər təşkil edirik ki, səsimiz eşidilsin, amma buna görə həbsə atılırıq. Biz Fransa müstəmləkəçiliyi ilə mübarizəmizi davam etdiririk. Bu ölkənin ədalətsizliyindən çox əziyyət çəkirik". Böyük Britaniyanın "CAGE" müstəqil insan haqları təşkilatının icraçı direktoru Məhəmməd Rəbbani isə konfransda çıxışında bildirdi ki, Fransa müsəlmanların uşaqlarını kriminallaşdırır: "Fransada etirazların strateji olaraq yatırılması trayektoriyası əks olunub. Burada hazırkı irqçilik və islamofobiya siyasətinə qarşı tənqidləri susdurmağa çalışırlar. Müsəlmanların üzərinə müxtəlif cinayətləri atırlar. Onların özünüifadə hüququ tapdalanır, qızların məktəblərdə müsəlman geyimləri geyinməsi qadağan olunur".

Konfrans iştirakçısı Yeni Kaledoniyanın Sosialist və milli KANAK azadlığı cəbhəsinin BMT-dəki nümayəndəsi Xanım Maqalie Tinqal çıxışında Yeni Kaledoniya xalqı adından Azərbaycan Prezidenti İlham Əliyevə bəyanatına görə təşəkkür edib: "Bu, çox güclü və çox doğru bəyanat idi. Fransa çox ikiüzlüdür. Azərbaycan Prezidentinə bizim vəziyyətimizlə bağlı bəyanatına görə təşəkkür edirəm. Biz bu gün Yeni Kaledoniyada çox böyük problemlərlə üzləşirik. Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı 2021-ci ilin 12 dekabrında keçirilmiş referendum pandemiya dövründə təsadüf etdi. Ona görə də biz bunun təxirə salınmasını istədik. Lakin Fransa referendumu saxladı, nəticədə Yeni Kaledoniya əhalisinin 57 faizi referendumda iştirak edə bilmədi. Fransanın bu referendumu saxlaması ikiüzlülükdür. Biz öz hüquqlarımız uğrunda mübarizə aparacağıq. Ona görə də bu məsələni Beynəlxalq Ədalət Məhkəməsində qaldıracağıq". Makron vaxtilə "İslam dövləti" terror təşkilatına qarşı yaradılmış beynəlxalq koalisiya çərçivəsində HƏMAS-a qarşı mübarizəyə başlamağı təklif edib. Hansı formada? Şübhə yoxdur ki, Liviyaya, İraqa və Suriyaya qarşı təşkil olunun kaolisiya forması düşünülür. Belə hal yaranarsa müharibə ocağının genişlənəcəyi və daha amansız xarakter alacağı şübhəsidir. Rusiya, Çin və müsəlman ölkələrinin Makronun iddialarına qarşı sərt təpki göstərmələri və belə bir birliyin yaradılması istəyini tənqid etmələri qeyd olunanlara misal ola bilər. Müharibə isə dayanmayacaq. Çünki, bundan əvvəl ABŞ prezidenti Bayden də Yaxın Şərqdəki hadisələri şərh edərkən bildirib ki, "hələ müharibəni dayandırmağın vaxtı deyil". ABŞ, Fransa və ümumilikdə Qərbin yanaşması bölgədə sülhü bərpa etmək, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırmaq yox, müharibəni daha da alovlandırmağa yönəlib.

### Fransa Livan vasitəsi ilə HƏMAS-a böyük çeşiddə silah-sursat satıb və bu alveri davam etdirməkdədir

E. Makronun və ümumilikdə Qərbin İsrail-HƏMAS müharibəsini dayandırmaq üçün fəal iş aparmaq əvəzinə savaşın davam etdirilməsinə dəstək vermələri bir daha göstərir ki, Qərb sülhdə maraqlı deyil. Hazırkı məqamda İsraillə HƏMAS arasında əldə olunan atəşkəs rejimi də müvəqqəti xarakter daşıyır. Fransa kimi qızışdırıcı mövqe tutan dövlətlərin səyi ilə tərəflər arasında müharibənin yenidən bərpa olunacağı şübhəsizdir. Bu, Fransanın xarici siyasətinin başlıca prinsiplərindəndir. Müharibələrin sayı çox olarsa Fransa keyfiyyətsiz silah sursatını müharibə aparan dövlətlərə satmaq imkanı qazanır. Artıq Livan vasitəsi ilə Fransa HƏMAS-a böyük çeşiddə silah-sursat satıb və bu alveri davam etdirməkdədir. Qeyd etmək lazımdır ki, bu gün Fransa dünyada silah ixracatçılarının ilk beşliyindədir. Raket silahı 23 faiz, radioelektronika 22 faiz və aviasiya texnikası 21 faiz təşkil edir. Ölkənin silah istehsal edən şirkətləri dünyanın 130 ölkəsinə silah satışını həyat keçirilər. Əsas silah alıcıları Səudiyyə Ərəbistanı, Misir, Hindistan, BƏƏ və Qətərdir. Fransa "bacı"sı hesab etdiyi Ermənistana da silah satışını həyat keçirir. Bununla bağlı razılıq Ermənistanın müdafiə naziri Suren Papikyanın Parisə səfəri zamanı əldə olunub. İlk növbədə Ermənistana 50 zirehli texnika, daha sonra "Minstrel" hava hücumundan müdafiə raketləri gətiriləcək. Fransa hərbi attaşesi Fransanın öldürücü silahlarının Ermənistana tədarükünə nəzarət edəcək. Artıq Fransanın İrəvandakı səfirliyində hərbi missiya yaradılıb, attaşe təyin edilib. Ümumiyyətlə, faktlar təsdiq edir ki, Fransanın Ermənistana hərbi dəstəyi hər zaman olub. 44 günlük Vətən Müharibəsində Fransa müxtəlif vasitələrlə Ermənistanı silahlarla təchiz etmişdir. Nədənsə o zaman Paşinyan hakimiyyəti böyük çeşidli silahlar sırasında yer alan PUA-ları qəbul etməkdən imtina edib.

### Dünya ölkələri Fransanın məkrli siyasətinə etiraz edir

Təbii ki, Ermənistan 44 günlük Vətən Müharibəsinin acı nəticələrindən nəticə çıxarmasa regionda yeni müharibənin baş verməsi qaçılmazdır. Bu halda Ermənistan mövcudluğunu tamamilə itirə bilər. Müharibə baş verəcəyi təqdirdə erməni hərbi xuntasının heç bir qüvvə, o cümlədən fransız silahları, ABŞ-ın dəstəyi, Avropa İttifaqının da kömək edə bilməyəcək. Ona görə də Ermənistanın hazırkı rəhbərliyi mövcud reallığı qəbul edərək, Azərbaycanın sülhə xidmət edəcək təkliflərini qəbul etməlidir, Zəngəzur dəhlizi açılmalı, sülh müqaviləsi imzalanmalı, Qərbin, xüsusilə də Fransanın regiona olan əsassız müdaxilələrinə qarşı etiraz edilməklə imtina edilməlidir. Ermənistanın acınacaqlı məğlubiyyəti ilə başa çatan 44 günlük Vətən Müharibəsindən sonra Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Davit Şahnazaryan bildirib ki, Fransa Ermənistana PUA-lara qarşı mübarizə sistemləri göndərmək təklif edib, ancaq Paşinyan qəbul etməyib. Görünür, müttəfiqi hesab olunan Rusiyanı özündən incik sala biləcəyindən ehtiyat edib. Çünki o zaman Ermənistan hakimiyyəti indiki kimi Rusiya ilə münasibətləri qarşıdurma səviyyəsində deyildi. Paşinyan rejimi müharibənin ilkin mərhələsində Rusiyaya olan ümidlərini tam şəkildə üzməmişdir. Yəni xəyal edirdi ki, tarixin müxtəlif dönəmlərində olduğu kimi, bu dəfə də Rusiya bütün vasitələrlə onlara Azərbaycana qarşı müharibədə yardımçı olacaq. Lakin Rusiya və digər Ermənistana dəstək verməyi düşünən dövlətlər və qüvvələr Azərbaycanın sərt münasibəti ilə üzləşə biləcəklərindən ehtiyat etdiklərindən açıq şəkildə Ermənistana kömək etməkdən imtina etdilər. Nəticədə 2020-ci il noyabrın 10-da Ermənistan təslim olmaq haqqında sənədi imzalamağa məcbur oldu. Məhz Ermənistanın ağ bayraq qaldırmasından sonra Fransa daha geniş və əhatəli şəkildə Ermənistan siyasi və hərbi dəstəyini artırmağa başladı. Bununla geosiyasi, geostrateji maraqları fonunda Cənubi Qafqazda mövcudluğunu təmin etməyə ümid bəsləyir, digər tərəfdən isə Ermənistana Avropa İttifaqının Qarabağ problemi üzərindən etdiyi yardımların qarşılığında bu maliyyə qaynaqlarını özününküləşdirmək istəyir. Lakin Fransanın ümidləri puça çıxacağı şübhəsidir. Çünki regionun lider dövləti olan Azərbaycan heç bir halda Fransanın və ya hansısa digər pozucu qüvvələrin bölgəyə daxil olmasına imkan verməz. Xatırlamaq yerinə düşərdi ki, Fransanın təkidi ilə Ermənistana göndərilən Avropa İttifaqının "sivil" missiyası heç nəyə nail ola bilmədi. Ermənistanın silah-texnika parkını yeniləməyə çalışması da nəticə verməyəcək. Nəticə etibarı ilə 2020-ci il noyabrın 10-da Azərbaycan qarşısında ağ bayraq qaldıran Ermənistan Fransa kimi dövlətlərin təsiri altında qalmaqda davam edəcəyi təqdirdə dövlətçiliyini itirməli olacaq. Çünki regionun hərbi, siyasi, iqtisadi və digər sahələrdə güc mərkəzi olan Azərbaycanın Ermənistanın təxribatlarına və pozuculuğa xidmət edən fəaliyyətinə göz yummaq fikrində deyil. Sərhəddə təxribatlar baş verəcəyi təqdirdə ciddi şəkildə Ermənistanın cəzalanacağı şübhəsizdir. Ona görə də Ermənistan Cənubi Qafqazda sülhün və əmin-amanlığın qorunub, saxlanmasını və mövcudluğunu itirməmək üçün Azərbaycanın sülhə xidmət edən təkliflərini qəbul etməlidir. Nəzərə alınmalıdır ki, Fransanın və digər ermənipərəst dairələrin Ermənistanı silahlandırması onsuz da gərgin olan Cənubi Qafqazda vəziyyəti dərinləşdirə bilər. Ermənistanın məhz Fransa tərəfindən silahlandırılmasını təsdiq edən bir sıra faktlar mövcuddur. Fransanın 50 ədəd VAB MK3 zirehli transportyorlarını, "Bastion" və "Şerpa" zirehli maşınlarını İrəvanın alacağı qeyd olunurdu. Artıq Fransa noyabrın əvvəlindən başlayaraq Ermənistana silahlarını tədarük etməkdədir. Haqlı olaraq da əksər demokratik düşüncəli dünya xalqları, dövlətləri Fransanın siyasətini açıq şəkildə pisləyirlər. Bu günlər Azərbaycanda səfərdə olan İraq prezidenti ilə görüşdə, xüsusilə də, Azərbaycan və İraq prezidentlərinin mətbuata birgə bəyanatı zamanı Fransanın neokolonialist siyasət yürütməsinin vurğulanması rəsmi Bakının növbəti uğurlu taktiki addımlarındandır.

Bu səfər İraq və Azərbaycan arasında perspektiv əməkdaşlıq üçün yeni imkanlar yaradır. Səfər çərçivəsində müxtəlif sahələrdə, o cümlədən, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İraq Respublikasının Əmək və Sosial İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İraq Respublikasının Mədəniyyət, Turizm və Tarixi Abidələr Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"; "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" imzalanması bu səfərin əhəmiyyətini göstərir. Bir daha nümayiş olunur ki, Azərbaycan demokratik dövlətdir və istənilən dövlətlə əməkdaşlıq əlaqələri qurmağa hazırdır. Eləcə də Ermənistan mövcud reallığı qəbul etməli, sülhə və təhlükəsizliyə təhdid yaradan Fransadan imtina edib, ağıllı siyasətin aparılmasına üstünlük verməlidir.

***İ.ƏLİYEV***

# Erməni mediası Paşinyanı ”dəli” adlandırdı

*Politik.am: "Belə çıxır ki, problem qlobal miqyas alır"*

***Ermənistanda fəaliyyət göstərən Politik.am saytı ölkənin baş naziri Nikol Paşinyanı, sözün əsl mənasında, ”ağ yuyub-qara sərib”. Üstəlik, ölkə başçısına ”dəli” möhürünü də vuran adıçəkilən media yazıb ki, 2018-ci ildə baş verən siyasi dəyişikliklər nəticəsində Ermənistanda Nikol Paşinyan hakimiyyətə gələndə cəmiyyətdə hər şeyin yaxşı olacağına dair yeni ümidlər yaranmışdı: ”Paşinyan ən azı müxalifətçi kimi parlament fəaliyyəti dövründə ictimai çıxışları ilə bir çox insanların rəğbətini və etimadını qazana bilmişdi”.***



### ”Paşinyanı onun dəliliyi ilə müqayisə etmək olar”

Məqalədə daha sonra deyilir: ”Təbii ki, həyat başqa bir şey göstərdi. Və o da məlum oldu ki, yeganə problem Paşinyan deyil. Belə çıxır ki, problem qlobal miqyas alır”.

Diqqətçəkən məqamlardan biri də Argentinada keçirilmiş prezident seçkisində Xavyer Mileyin Nikol Paşinyana, yaxud Paşinyanın Mileyə bənzədilməsidir. Belə ki, həmin yazıda qeyd olunur: ”Argentinada, məlum olduğu kimi, ”El Loko” və ya ”Dəli” adlandırılan Xavyer Miley prezident seçilib. O, Argentinanın siyasi həyatında dəliliyi ilə tanınır. Paşinyanı onun dəliliyi ilə müqayisə etmək olar. Yeri gəlmişkən, ”El Loko” ləqəbli argentinalı prezident o vaxt elan etmişdi ki, onu siyasətlə məşğul olmağa Konan adlı bir ruh sövq edib və ekstrasens vasitəsilə ona çatdırılıb ki, missiyası prezident olmaqdır”.

### ”Nəticədə hakimiyyətə ”Dəli” gətirildi”

Məqalədə qeyd edilir ki, dünyanın siyasi səhnəsində yeni tendensiya formalaşır: ”Argentina prezidenti Xavyer Miley və Ermənistanın baş naziri Nikol Paşinyanın personajlarının müqayisəli təhlilinə görə bu tendensiyanın mahiyyəti nədir? Elitalar, bir qayda olaraq, öz prinsipsizliyi ilə seçilən, lakin xarizmatik, yumşaq desək, müəyyən mənada təzahür edə bilən xarizması ilə kütləni ”ovsunlanmış vəziyyətdə” saxlamağı bacaran fiqurları gündəmə gətirirlər.

Ekssentrik, hətta qeyri-adekvat elementlər bu siyasətçiləri bir növ unikal təlxəyə, sehrbaza çevirir”.

”Təbii ki, Argentina Latın Amerikasının sonuncu ölkəsi deyil. Halbuki Argentina həm də müəyyən dərəcədə öz kimliyini müdafiə etməyi bacaran, Qərbə qarşı çıxmağı bacaran ölkə idi. Nəticədə, hakimiyyətə ”Dəli” gətirildi”, - deyə bildirilir.

### ”O kifayət qədər ağrılı şəkildə, Qarabağ bahasına və mümkün qədər məsuliyyəti Rusiyanın üzərinə qoyaraq bu tapşırığı uğurla icra edir”

Sonda isə Ermənistanda son həddə çatan anti-Rusiya siyasətinə toxunulur: ”Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq və bunu Rusiyanın regionda yeganə etibarlı dayağı olan Ermənistanın etməsi üçün mövcud olan geosiyasi problem aradan qaldırmaq lazım idi. Paşinyan bunu bacardı.

O kifayət qədər ağrılı şəkildə, Qarabağ bahasına və mümkün qədər məsuliyyəti Rusiyanın üzərinə qoyaraq bu tapşırığı uğurla icra edir”.

***Afət Tahirqızı***

# “Böyük Qayıdış prosesini həyəcan və sevinclə izləyirik”




MÜNASİBƏT

“Azərbaycan öz ərazi bütövlüyünü Müzəffər Ali Baş Komandanımızın rəhbərlik etdiyi qəhrəman ordumuzun sayəsində tam olaraq bərpa etmişdir. Bu gün İşğaldan azad edilən torpaqlarımızda güclü sulürətdə quruculuq- bərpa işləri aparılır. Eyni zamanda, ərazilər minalardan təmizlənir”. Bu fikirləri SİA-ya açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.

Anar Xəlilov bildirdi ki, dağıdılmış yurd yerlərimiz yeni müasir tələblərə cavab verən yaşayış məskənləri kimi yenidən qurulur: ”Bütün işlər Cənab Prezidentin yaxından iştirakı və rəhbərliyi ilə yüksək səviyyədə aparılır. Artıq ən əsas proses olan geriyə köç başlanmışdır. Böyük Qayıdış adlanan bu köç prosesini həyəcan və sevinclə izləyirik. Keçmiş yurd yerlərinə insanlar böyük sevinc və həvəslə qayıdırlar. Artıq Zəngilan rayonu Ağalı kəndi, Laçın rayonun mərkəzi və Zabux, Sus kəndləri, keçmiş Ağdərə rayonunun Suqovuşan, Talış kəndləri yenidən qurulmuş və insanların köç prossesi davam edir. Yaxın vaxtlarda Şuşaya köç başlayacaqdır. Cəbrayıl rayonu Soltanlı kəndi və Kəlbəcər şəhərində tikintilərə başlanılmışdır. Ağdam şəhəri yeni müasir şəhər salma üsulu ilə qurulur. Ağdam rayonunun Kəngərli kəndində işlər sürətlə davam edir. Füzuli şəhərinə köç başlanıb. Özbəkistan respublikasının maliyyə yardımı ilə Füzuli şəhərində 1 saylı orta məktəb fəaliyyətə başlayıb. Bütün müasir şəraiti və gözəlliyi ilə bu məktəb baxanları valeh edir. Xankəndi şəhərinin keçmiş əhalisi yenidən siyahıya alınır və oraya da yaxın zamanda köç prosesi başlayacaq. Digər kən və şəhərlərimizdə layihə, planlaşdırma işləri aparılır”.

A.Xəlilov onu da bildirdi ki, işğaldan azad edilmiş bölkələrimizdə kommunikasiya əlaqələri yenidən sürətlə qurulur: ”İnsanların öz yurdlarında maneəsiz, təhlükəsiz və rahat yaşamaları üçün bütün zəruri addımlar atılır. Məşğuluq məsələləri öyrənilir və yeni müəssisələr yaradılır. Məqsəd tez bir zaman kəsiyində keçmiş nəcburi köçkünlərin öz vətənlərinə qaytarılması və yurd yerlərində həyatın yenidən qaynamasına nail olmaqdır. Keçmiş məcburi köçkünlərimiz də bu prossesi yaxından izləyir və səbirsizliklə öz yurdlarına qayıtmağı gözləyirlər. Köç prosesini uğurla həyata keçirən Dövlət Komitəsinə (”Qaçkınkom”) hər gün keçmiş məcburi köçkünlər kütləvi olaraq geriyə köçlə bağlı müraciətlər edir. Bu bizləri sevindirir. İnsanlarımızın öz dədə-baba yurdlarına bağlılığı, tezliklə dönüb orada həyatın qaynamasını təmin etməkləri çox alqışalayiq haldır. Mən əminliklə deyə bilərəm ki, çox yaxın zamanlarda o torpaqlarda həyat yenidən öz axarına düşərəj dirçələcək, insanlar öz yurdlarında rahat və firavan yaşayacaqdır. Məqsəd də elə bundan ibarətdir. Ölkə rəhbərliyinin torpaqların azad olunmasında göstərdiyi dəmir iradə, o torpaqların yenidən qurulmasında və keçmiş məcburi köçkünlərin gei köçürülməsində də öz sözünü deməkdədir. Qısa müddətdə görülən işlərin miqyası bunu deməyə əsas verir. Keçmiş məcburi köçkünlərin tez bir zamanda geri qayıtmaq arzusu ilə yanaşı gedən quruculuq işlərində də yaxından iştirak etmək istəklərinin də yüksək olduğu nəzərə çarpır. Dövlət Komitəsinə bu istəklə müraciət edənlər də çoxluq təşkil edir. Onların müraciətləri quruculuq bərpa işlərinin həyata keçirən şirkətlərə göndərilir. Biz İctimai Şura olaraq bu şirkətlərdən bu müraciətlərə daha həssas olmaqlarını xahiş edirik. Böyük Qayıdış prossesində bu çox əhəmiyyətli bir məsələdir. Öz gücü ilə ədaləti bərpa edən Azərbaycan dövləti tez bir zamanda da o torpaqların əzəli sahibləri olan keçmiş məcburi köçkün azərbaycanlı vətəndaşlarımız öz yurdlarına qayıdışını yüksək səviyyədə həyata keçirdəcəkdir. O torpaqların insanları da 30 illik işğal yarasını sağaltmaq üçün yurd yerlərimizin inkişafı və firavan həyatları naminə əbədi olaraq orada yaşayacaq və yaradacaqlar”.



***Gülyanə***

# ”USAİD ABŞ-ın ayrı-ayrı bölgələrdə vuran qollarından birinə çevrilib”

## POLİTOLOQ ŞƏRH ETDİ



“Qlobal təhlükəsizliyə qarant rolunda iddia edilən bir sıra güclər, xüsusilə də ABŞ uzun illər ərzində dünyanın müxtəlif yerlərində özünün maraqlarını həyata keçirmək üçün çeşidli metodlardan istifadə etməyə çalışıb. Xüsusilə də demokratiya, insan hüquq və azadlıqları zəif inkişaf etməkdə olan ölkələrdə vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması kimi cəlbedici adlar altında müxtəlif siyasi institutlar vasitəsilə ABŞ maraqlarına xidmət edən qruplar formalaşdırmağa çalışıb. Bu qruplar vasitəsilə həmin dövlətlərin hakimiyyətlərinə təsir edərək, ABŞ-ın maraqlarına uyğun addım atmağa məcbur qoyublar. Əks halda müxtəlif dövrlərdə ayrı-ayrı xalqların həyatında özbaşınalıq, vətəndaş itaətsizliyi, hətta hakimiyyət böhranı, dövlət çevrilişi kimi proseslər bu qruplar tərəfindən reallaşdırmağa çalışıblar. Çox təəssüf ki, bu cür təşkilatların əksəriyyətinin yaranma məqsədi zəif inkişaf edən ərazilərdə əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması və demokratiya, azad bazarların genişləndirilməsində ABŞ maraqlarının qorunmasına xidmət edir. Belə təşkilatlardan olan USAİD davamlı olaraq ABŞ-ın ayrı-ayrı bölgələrdə vuran qollarından birinə çevrilib. Dünyanın ayrı-ayrı bölgələrində ABŞ-ın maraqlarına tabe olmaq istəməyən hakimiyyətlərə təzyiq əlaməti olaraq USAİD vasitəsilə gizli fəaliyyətlər həyata keçirilib. Müxtəlif qruplar formalaşdırılaraq, onlar üzərindən hakimiyyətlərə təzyiq etməyə çalışıblar. Bununla bağlı tarixdən çoxlu sayda nümunələr göstərilə bilər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.

Politoloq bildirib ki, USAİD həm də ABŞ-ı təmsil edən və onun tərəfindən maliyyələşən bir qurum olmasına baxmayaraq, dünyada ən çox korrupsiyalaşan təşkilatlardan biri kimi qiymətləndirilir. Eyni zamanda 25 milyardlıq dövlət büdcəsi ilə dünyanın ən böyük təşkilatlarından biri kimi çıxış edən USAİD həm də dünyanın ayrı-ayrı bölgələrində müxtəlif şişirdilmiş layihələr çərçivəsində böyük məbləğlərin yuyulmasına xidmət edən təşkilatdır.

Çox təəssüf ki, USAİD-in mənfi addımlarını son zamanlarda Azərbaycan cəmiyyətində də müşahidə edirik. Məhz özünü demokratiya carçısı adlandıran, mahiyyət etibarilə isə narazılıqlar yaratmaq fəaliyyəti güdən məqsədlərlə Azərbaycan daxilində də pozucu işlər görməyə çalışırlar. Hesab edirəm ki, belə fəaliyyətlər 1990-cı illər və 2000-ci illərin əvvəllərində müəyyən nəticələr versə belə, artıq ABŞ-ın içüzü açıldığından, belə təşkilatların məqsədi hər kəsə məlum oluğundan effektiv nəticələr doğurmaq imkanı da məhduddur”.

# Qəndmi, dərdmi?

## İstehlakçının gec əriyən qənd axtarması istehsalçının dəyirmanına su tökür






**İnsan orqanizminə ən təhlükəli zərərləri vuran üç qidadan biri də şəkərdir. Bütün sağlamlıq biliciləri deyir ki, əslində, şəkər, tütün qədər təhlükəli, zərərverici və asılılıq yaradan qidadır. Bir çox dünya alimi onu, hətta narkotiklə müqayisə edir. Statistikaya görə, Azərbaycanda bu nemətin istehlak miqdarı əmək qabiliyyətli əhali üçün 17, 0-15 yaş arası uşaqlar üçün 18 kq təşkil edir.**

### Əsl şəkər necə olmalıdır?

Qidalanmamızda əvəzedilməz vasitələrdən biri hesab etdiyimiz şəkər insan orqanizmində 95%-dən çox mənimsənilir. Bu gün dünyada istehsal olunan şəkərin 45% şəkər çuğundurundan, qalan 55 %-i isə şəkər qamışından əldə edilir. Şəkər tozu quru, dənəvər olmalı, heç bir halda ələ yapışmamalıdır, şəkər kristallarının həcmi isə 0,2-2,5 mm-dən artıq olmamalıdır.

Keyfiyyətli şəkər tozunun rəngi ağ və ya sarımtıl, parıltılı, dadı saf şirin olmalıdır, kənar dad və iyi verməməlidir. Suda tam həll olmalı və çöküntü verməməlidir. Şəkər tozunun nəmliyi 0,14 faizdən, quru maddəyə görə saxaroza 99,75 faizdən az, reduksiyaedici maddələr 0,05 faizdən, kül isə 0,03 faizdən çox olmamalıdır. Rafinad-qəndinin nəmliyi çeşidindən asılı olaraq 0,1-0,4 faizdən çox, quru maddəyə görə saxaroza 99,9 faizdən az olmamalıdır. Bütün bunlar qəndin bizim ölçə və



hiss edə bilməyəcəyimiz əlamətləridir, bəs adi gözlə şəkərdəki anormallığı və bizə təhlükə yarada biləcəyini necə bilmək olar?

### Qəndin tərkibindəki dəhşət

Azərbaycanda qənd istehsalı ilə həm böyük müəssisələr, həm də xırda sexlər məşğuldur. Ekspertlər hesab edir ki, insan orqanizmini hədələyən təhlükənin təməli də elə bu sexlərdə qoyulur. Sahibkarlar daha çox qazanc əldə etmək məqsədi ilə bu sexlərdə istehsal olunan qəndin tərkibinə daha ucuz əldə edilən lazımsız komponentlər əlavə edir. Bununla onlar həm də qəndin möhkəmliyini artırmaq, xüsusi dad vermək məqsədi güdürlər. Təbiidir ki, istifadə etdikləri komponentlərin insan orqanizminə vuruğu dəhşətli zərərlər barədə heç bir sahibkar düşünmür, onları maraqlandıran, sadəcə, əldə edəcəkləri mənfəətdir.

Bəzi məlumatlara görə, kəllə qənd adı ilə istehsal edilən məhsulların təhlükəsi daha çoxdur. Belə ki, zaman-zaman mətbuatda, qənd sexlərində qəndin içinə heyvanın üyüdülmüş sümüyünün qatılması barədə məlumatlar da dərc olunub. Bu üsulla istehsalçı guya qəndin möhkəmliyinə, suya davamlılığına nail olur. Axı istehlakçı ağızda tez əriyib suya dönən qəndi keyfiyyətsiz hesab edir. Təbii ki, haqsız olaraq. Mütəxəssislər gec əriyən qəndləri istehlak etməməyi məsləhət görür.

Sahibkarların bunu etməkdə bir məqsədi qəndin bərk olmasıdırsa, digər məqsədi də çəkidə ağır gəlməsidir. Hələ sovet dövründə Azərbaycanda xüsusi adamlar kənd yerlərini gəzərək heyvan sümüyü toplayırdılar. Uzun illərdir ki, cəmiyyətdə heyvan sümüyündən qənd istehsalında istifadə olunması barədə məlumatlar dolaşır. Çox sayda şikayət var, amma təəssüf ki, bu günə kimi qəndin tərkibinin nədən ibarət olduğunu araşdırılaraq bir nəticəyə varılmayıb.

Qəndin tərkibinə qatılan heyvan sümüyünün insanda dəhşətli xəstəliklərə səbəb olduğu barədə kifayət qədər çox məlumat var. Bu heyvan sümüklərinin xəstə heyvanların olması ehtimalı vəziyyəti daha da çətinləşdirir. Əldə etdiyimiz bəzi məlumatlara görə isə bu sexlər xüsusi adamların zibilliklərdən yığdığı sümüklər müqabilində qonarar ödəyir.

### İmişlidən süfrəmizə nə gəlir?

İmişli Şəkər Zavodunun inşaat işlərinə 2003-cü ildə, ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə başlanılıb. 70 hektar ərazidə inşa olunan zavoda 100 milyon ABŞ dolları məbləğində investisiya qoyulub. Dünya standartlarına cavab verən texnologiyalarla təchiz edilmiş İmişli Şəkər Zavodunun layihə və montaj işləri Almaniya, Polşa, Türkiyə və Ukrayna mütəxəssislərinin nəzarəti altında azərbaycanlı mühəndis və montaj heyəti tərəfindən həyata keçirilib.

23 mart 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə İmişli Şəkər Zavodunun rəsmi açılış mərasimi keçirildi. İmişli Şəkər Zavodu hazırda şəkər tozu, heyvan yemi, kəllə qənd və etanol istehsalı sahələrində fəaliyyət göstərir. İmişli şəkər zavodunun illik istehsal gücü 60000 tondur.

Ümumiyyətlə, şəkər tozunun keyfiyyəti kristalların quruluşuna, xarici görünüşünə, rənginə, dadına, iyinə, həll olmasına və kənar əlavələrin olub-olmamasına görə müəyyən edilir. Qeyd edək ki, dünyada qəndi şəkər qamışı və şəkər çuğundurundan hazırladıqları halda Azərbaycanda bu qida məhsulu birbaşa olaraq şəkər tozundan hazırlanır. Yəni bu qida vasitəsinin istehsalında birbaşa xammala müraciət edilmir.

### Şəkərlə xəstəlik qohumdur

Həkimlər deyir ki, şəkər xərçəng hüceyrələrinin ən çox sevdiyi qidadır. Şəkər tozu və qənd immunitet sisteminizi zəiflədə, bədənin mineral tarazlığını poza, uşaqlarda hiperaktivliyə, narahatlıq, diqqət pozuqluğuna, tənbəlliyə səbəb ola bilər, bundan əlavə bakteriya infeksiyalarına qarşı müdafiəetmə sistemini zəiflədə bilir. Çox istehlak edilən şəkər böyrəklərə zərər verir, orqanizmdə mis, kalsium azlığı yaradır.

Üzdən məsum görünən, mətbəximizin şirinliyi, şirniyyatlarımızın baş tacı, qış tədarükü olan mürəbbələrin, kompotların əsas kompo-



nenti olan şəkər qadınlarda döş, yumurtalıq, kişilərdə prostat xərçənginə səbəb olur. Öd kisəsi xərçənginin yaranma səbəblərindən biri də məhz şəkərdir.

O eyni zamanda, görmə qabiliyyətini zəiflədir, mədə şirəsini azaldır, saçların ağarmasına, spirt asılılığına, diş çürüməsinə, kökəlməyə, astmaya, göbələk infeksiyalarına, öd problemlərinə səbəb olur. İşemik ürək xəstəlikləri, kor bağırsaq tutmaları, qanda qlükozanın azalması, qida allergiyası, şəkərli diabetin yaranması, hamiləlikdə qan zəhərlənməleri, gözün kataraktası kimi xəstəliklər məhz şəkərin töhfəsidir.

Miqren tutmaları zamanı şəkər istehlakını minimuma endirmək lazımdır. Depressiyaya tez-tez düşən insanların rasionuna diqqət etsəniz görərsiniz ki, onlar şəkərdən çox istifadə edir. Və nəhayət, şəkər alzeymer kimi dəhşətli bir xəstəliyə səbəb olur. Bu xəstəlik insanın bütün həyatını bir anda unutması, keçmişinə dair heç bir şeyi xatırlamaması deməkdir.

***Lalə Mehralı***

---

# Qışa hazırıq?



Bir neçə gündən sonra artıq qış aylarına keçid edəcəyik. Payız mövsümündə havalar normal keçsə də, günü-gündən qışın gəlişini daha çox hiss edirik. Belə olan təqdirdə respublikamızda aidiyyəti qurumların qış aylarında əhalinin qarşılaşdığı problemləri həll etmək və ya qabaqlayıcı tədbirlər görmək məqsədilə hansı addımları atdığı maraq doğurur. SİA olaraq "qışa hazırsınızmı?" sualı ilə yerli qurumlara müraciət etdik.

**"Azəriqaz" İB-nin mətbuat xidmətinin rəhbəri Eldəniz Vəli-**



**yev:** "SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi hər il olduğu kimi, bu il də may ayından başlayaraq payız-qış mövsümünə hazırlıq prosesini həyata keçirib. Bu hazırlıq prosesində yeraltı xətlərin yerüstü dayaqlar üzərinə qaldırılması, korroziyaya uğramış hissələrin yeniləri ilə əvəz olunması, yeni qaz xətlərinin çəkilməsi, boya işlərinin aparılması və s. işləri icra olunur ki, soyuq havaların keçdiyi aylarda abonentlərə təhlükəsiz və davamlı qazın verilişini təmin edə bilək. Bu il də analoji proses gedib. Xeyli sayda yeni xətlər çəkilib. Qeyd edim ki, topdansatışla bağlı heç bir problemimiz yoxdur. Yəni, havalar nə qədər sərt keçərsə-keçsin abonentlərin lazımi təzyiqdə qazla təmin etmək imkanımız var. Əminliklə deyə bilərəm ki, "Azəriqaz" İstehsalat Birliyi ötən illərlə müqayisədə bu il qışa daha yüksək səviyyədə hazırdır. Amma fors-major hallar mütləq nəzərə alınmalıdır. Çünki bizim fəaliyyətimizdən asılı olmayaraq təbii fəlakətlərin, hava şəraitinin nəticəsində hər hansı problemlər ortaya çıxa bilər. Bundan əlavə bizim boru xətlərinə müəyyən zərərlər dəyə bilir. Lakin "Azəriqaz" İB-nin işçiləri qış aylarında xüsusi rejimdə çalışırlar. Əməkdaşlarımız qış mövsümündə də gücləndirilmiş iş rejimində çalışırlar. Çağrı mərkəzimiz 24 saat əhalinin zənglərinə operativ qaydada cavab verir və problemin qısa zamanda həll olunması üçün zəruri addımlar atır. Güman edirəm ki, bu il daha yaxşı fəaliyyət göstərəcəyimizi öz əməli fəaliyyətimizlə sübut edə biləcəyik".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllının sözlərinə görə, qurumun bütün texniki qurğuları əhalini içməli su ilə təmin etmək üçün hazır vəziyyətdədir:** "Sentyabr ayından başlayaraq qışa hazırlıqla bağlı işlərimiz davam edir. Həm içməli su, həm də kanalizasiya infrastrukturunda monitorinq işləri aparırıq. Təmirə ehtiyacı olan hidrotexniki qurğularda işlər görürük. Eyni zamanda, payız-qış mövsümündə ən çox müşahidə olunan problemlər yağıntıların çox olması və şaxtalı hava şəraiti ilə bağlı olur. Ona görə



həmin dövrlərə hazırlaşmaq üçün kanalizasiya kollektorlarının, baxış quyularının yuyulub təmizlənməsi işləri həyata keçirilir. Həmçinin, nasoslar işlək vəziyyətə gətirilir. Payız-qış mövsümündə ən çox gördüyümüz işlərdən biri su anbarlarının yuyulub təmizlənməsidir. Yay aylarında suya tələbatın kəskin olduğu dövrlərdə bu anbarların yuyulması işlərini həyata keçirmirik. Təsdiqlənmiş praktikaya uyğun olaraq bu ilin dekabr ayının ortalarına qədər artıq bütün anbarlar yuyulmuş olacaq. Ümumiyyətlə, su və kanalizasiya sistemləri payız-qış mövsümünə demək olar ki, hazırdır. Həm şaxtalı, həm də yağışlı günlərdə hidrotexniki qurğular, nasos stansiyaları pik rejimdə çalışmağa hazır vəziyyətdədir".

***Ləman Sərraf***

# Məntiq tükənən yerdə böhtan başlayır...

*İflasa uğrayan Əli Kərimlinin məkrli və çirkin siyasəti*

Bu həqiqətən də belədir: məntiq tükənən yerdə AXCP sədri Əli Kərimlinin sevimli məşğuliyyətinə çevrilən böhtan və uydurmaları başlayır. Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu, sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət, o cümlədən Əli Kərimli kimilər illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusa çevriliblər. Nəticə nə oldu? Sonda ayaqqabıları belə silməyə lazım olmayan dəsmal parçası.

Bax, budur həqiqət. Ona görə də, Azərbaycan xalqı koronavirus epidemiyasından çıxdıqdan sonra dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli kimi antimilli ünsürün şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq. Çünki



## Tarixi faktları saxtalaşdırmaq olmaz, tarix unudulmur

Və son günlər AXCP-dən qopmalar, istefa verənlər Pərvin Hüseynli, Fatima Hüseynov bildirib ki, nə zamana qədər AXCP Əli Kərimlinin girovluğunda qalmalıdır? Seymur Həzi nə üçün Əli Kərimlinin kölgəsində olmalıdır?

Göründüyü kimi, Əli Kərimli, cidanı çuvalda nə qədər gizlətmək olar? 28 ildir AXCP fəaliyyətinin bütün dövrlərində Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənafelərinin ziddinə fəaliyyət göstərmiş, hətta Vətən müharibəsi və antiterror tədbirlərində bu "partiya" və "funksionerləri" açıq şəkildə dövlət və xalq əleyhinə mövqedə qərarlaşmışlar. Və illər uzunu Əli Kərimovun yalanlarına və şəxsi ambisiyalarına alət olmuş üzvlər tədricən bu reallığın fərqinə varmaqdadır. 28 ildir susan partiya fəalları başa düşməlidirlər ki, Əli Kərimli demokratiya, insan hüquqları, sosial dövlət ideyalarına tüpürmüş, maddi maraq üçün çalışan bir diktatordur. Elə ona görə də sadə bir çəhbəçinin onun üçün dəyəri yoxdur. Çünki yetərli sosial bazası olmayan və cəmiyyətdə heç bir nüfuza malik olmayan AXCP üçün 5004 imza toplamaq çox ağır idi. Bu məqamda yenə də boş vədlər, ənənəvi yalvarışlar işə düşdü. Populist çıxışları ilə ətrafına zorla bir neçə adam toplayıb 5000 imzanı ədliyyə nazirliyinə çətinliklədə olsa təqdim edə bildi. Amma AXCP-də ki, son qopmalar Əli Kərimlinin və partiyasının gələcəkdə təhlükəyə düşməsini qaçılmaz edir. Partiyada yaranan vəziyyət AXCP-nin mövcudluğunu sual altına salacağına heç ümid belə qalmayıb. Çünki özünə hörmətlə yanaşan, milli düşüncəli şəxsin antimilli ünsürün yanında nə işi? Bu gün Əli Kərimli kimilərin meydanı daha da daralır və necə deyərlər siyasi süqutun sonu yaxınlaşır. Və bu gün cəmiyyətin özü güzgüdür və hansı ideologiyanın milli mənafeyə, sosial rifaha, qanunçuluğa, dövlətçiliyə, müasirliyə, varisliyə söykəndiyini yaxşı görür və yaxşı da bilir. Və yaxşı bilir ki, indi 90-cı illərin əvvəlləri deyil. Arzuolunmaz ssenari düzənləmək istəyənlər isə unudublar ki, nə dövlət həmin dövlətdir, nə cəmiyyət! İndi dövlət cox güclüdür, cəmiyyət isə ağı-qaradan seçə bilir. Əldə olunan nailiyyətlər sırasında təhlükəsizlik, güclü ordu, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah öndə gəlir. Son illər cəbhədə düşmənə verilən cavab, bir qarış olsun belə torpaq verməmək, əksinə, yeni mövqelər əldə etmək məhz bu gücün real göstəricisidir.

Və bu satqın, ermənıyə nökərçilik edənlər anlamalıdır ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Bəli, heç kim şübhə etmir ki, əlverişli məqamda bu, mütləq baş verəcək. Bunu 2016-cı ilin aprel döyüşləri, hazırda Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr və bu ilin sentyabr ayının 19-da işğalçı Ermənistanın etdiyi təxribatlarına görə əməllibaşlı dərsini verdi. Və "Dəmir yumruğ"un davamı olaraq "Qisas" və "Qətiyyətli cavab" əməliyyatları Ermənistana layiq olduğu yeri göstərdi. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük İkinci Qarabağ müharibəsində dünya hərb tarixinə yeni səhifə yazan yenilməz Azərbaycan Ordusu - 2023-cü il sentyabrın 20-də növbəti qələbəyə imza atdı. Belə ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının "Dəmir Yumruq" siyasəti ilə Güclü Ordumuzun əsgər və zabitləri Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi daha bir böyük missiyanı uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Qısa müddətdə - bir günə təmin etdiyi qələbə yenilməz Ordumuzun malik olduğu imkanların olduğunu və Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı bütün təxribatların qarşısı qətiyyətlə alınır və alınacağının sübutu idi.

Qalib Liderimiz, Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində lokal antiterror tədbirlərinə başlanmasını şərtləndirən amillərə diqqəti yönəldərək bildirdi ki, bu tədbirlər nəticəsində hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlətimizin başçısı deyib: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır".

Bəli, sözü imzası qədər dəyərli və keçərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev nə vaxt, nəyi, necə etmək lazımdır - bunu özü bilir. Və dövlət başçımızın söylədiyi kimi: "Bizə xor baxanlara, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "Dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

***Rəfiqə HÜSEYNOVA***

## "Ermənistan Qərbin əlində oyuncaqdır"

*ŞƏRH EDİLDİ*



"Qərbin Azərbaycana təzyiqlərinin arxasında qərəz, ikili standartlar dayanır. ABŞ, Fransa və digər Avropa ölkələri Ermənistanı bəhanə gətirib regionu təsir altına salmağa çalışırlar. Burada Rusiyanın regiondan uzaqlaşdırmaq planı da var. Amma bu, bir o qədər də asan olmayacaq. Çünki Rusiyanın Ermənistanda mövcudluğu uzun illərə dayanır, bu ölkənin bütün müəssisələri, xidmət sahələri, o cümlədən dövlət olaraq təhlükəsizliyi Moskvanın əlindədir. Bir sözlə, MDB, KTMT və Aİİ üzvü olan Ermənistanın özünə yeni sahib axtarması, Moskvanın rəhbərlik etdiyi qurumlardan çıxması qeyri-mümkündür. Qərb dairələri də sakit durmurlar, asanlıqla yola gələn, əvvəlki bağlarından imtina etməkdə çətinlik çəkməyən Ermənistana bundan sonra arxa duracaqlarını bəyan edərək onu oyuna gətirirlər. Ermənistan Qərbin əlində oyuncaqdır, istədiyi zaman işə salır".

Bunu "Səs" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. A.Hüseynov qeyd edib ki, ABŞ-ın rəhbərlik etdiyi Qərb düşərgəsinin Azərbaycanı hədəfə almasının səbəbləri var: "Zəngin Avropa bazarına sahiblənmək Vaşinqtonun əzəli arzusu idi. Rusiyanın Avropa ilə münasibətlərini, ticari əlaqələrini minimum endirən ABŞ onun yerini doldurmağa çalışıb və maraqlıdır ki, bunu bacarıb. Rusiyadan 6,1 milyard dollar dəyərində maye qazı gizli yolla idxal edən Avropa ölkələri də ABŞ-ın hegemonluğundan bir o qədər də razı deyillər. ABŞ-ın Cənubi Qafqaza nüfuz etmək cəhdləri də sülhməramlı deyil, hadisələrin gedişatı gərginliyin artan istiqamətdə getdiyindən xəbər verir. Qərb Orta Dəhlizə gələcəkdə nəzarət etməsi üçün potensial rəqiblərinə qarşı önləyici həmlələr edir, hətta regional ölkələri də təhdid altında saxlamağa və nəhayət istəyinə çatmaq istəyir. Qarşıda Ermənistanla Azərbaycan arasında vasitəçilərsiz görüşün olma ehtimalı var. Azərbaycanın irəli sürdüyü format reallaşma ərəfəsində olduğu bir vaxtda ABŞ-ın və onun avropalı dostlarının narahatlıqları sezilir. ABŞ Dövlət Departamentinin "Hər iki tərəfin bir-biri ilə birbaşa və vasitəçilərlə danışması bizi ruhlandırır. Bununla biz bütün regionun faydalanması üçün real fürsət görürük. Məsələn Mərkəzi Asiyadan ticarət Azərbaycan və Ermənistan vasitəsilə Türkiyəyə keçə bilsə, bu, həmin ticarət yolu üzərindəki bütün ölkələr üçün əhəmiyyətli təkan olardı", deməsi çox şeyi alınıb. Bu, həm də onu göstərir ki, Qərbin regional siyasətə təsir imkanları azaldıqca münasibətlərində də yumşalma hiss olunur".



***SƏBİNƏ***

## "Sadəcə evi tikib yekunlaşdırmaqla iş bitmir"

*EKSPERT İZAH ETDİ*



"İstər çoxmənzilli yaşayış binaları, istər fərdi yaşayış evləri, istərsə də müxtəlif təyinatlı obyektlərin tikintisi zamanı onlar layihələndirilir. Layihələr norma və standartlara uyğun olaraq tərtib olunur və icrası da mütləq şəkildə həmin norma və standartlar əsasında həyata keçirilməlidir. Fərdi yaşayış evlərinin tikintisi zamanı da əvvəlcə layihə təsdiq olunur. Bu layihədə bütün norma və standartlar, istifadə olunacaq materiallar, materialların keyfiyyəti, onların növü, inşaat prosesində istifadə olunacaq elektrik avadanlıqlarından tutmuş torpağın təyinatına qədər, tikiləcək evin mərtəbə sayı, ölçüləri, hətta Günəş şüalarının düşmə bucağı belə göstərilir. Buna görə də fərdi yaşayış evlərinin də tikintisi zamanı mütləq qaydada yalnız akkreditasiyadan keçmiş müəssisə tərəfindən layihələndirilən layihə əsasında, rəsmi icazəsi olan müəssisə tərəfindən tikilməlidir". Bu sözləri SİA-ya təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev deyib. "Təəssüflər olsun ki, bəzən insanlar ev tikilməsi prosesini bunu bacaran qohumlara, tanışlara tapşırırlar. Həmin şəxslər də bu işi anlayışları olduqları qədərilə yerinə yetirirlər və nəticədə qeyri-peşəkar iş ortaya çıxır. Əlbəttə ki, bu cür fərdi yaşayış evinin möhkəm və dayanıqlılığından söhbət gedə bilməz. Belə proseslər, əsasən, Bakı ətrafı ərazilərdə və regionlarda baş verir. Çünki belə ərazilərdə tikinti prosesləri torpağın tərkibi nəzərə alınmadan baş verir. Çox vaxt rayonlarda evləri çay yatağının kənarında və ya sürüşmə zonasında evləri inşa edirlər",- deyə o əlavə edib.Ekspert bildirir ki, sadəcə evi tikib yekunlaşdırmaqla da iş bitmir: "Mütəmadi olaraq qulluq, təmir, bərpa işləri aparmaq olduqca vacibdir. Bu həm evin istifadə ömrünü artırır, həm də təhlükəsiz yaşayışı təmin edir".

***Ləman Sərraf***

# Ermənistanın 2 yolu var: Azərbaycanla sülh müqaviləsi və ya dağılma

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Noyabrın 30-da Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti iclası keçiriləcək. Bu görüş, təbii ki, erməni tərəfindən pozulmadığı halda, dalana dirənmiş danışıqlar prosesində müəyyən irəliləyiş kimi qiymətləndirilə bilər.***



Komissiyalar irəliləyiş əldə edəcəkmi? Ermənistanın Aİ və ABŞ timsalında "saniyələri" necə davranacaq? "Siyasi Təhlil və İnformasiya Təhlükəsizliyi Mərkəzi"



ƏCNƏBI EKSPERTLƏR

beynəlxalq ictimai təşkilatının direktoru, Avrasiyada Strateji Tərəfdaşlıq üzrə Berlin Komitəsinin sədri Svyatoslav Andrianova, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini Darya Qrevtsova, rusiyalı politoloq, "Truly" portalının baş redaktoru Ruslan Aysin bununla bağlı fikirlərini "Caliber" analitik mərkəzinə bildiriblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Svyatoslav Andrianovun fikrincə, Qərb Ermənistandan "2-ci Ukrayna" yaratmağa davam edir və buna nəzərəçarpacaq dərəcədə nail olub.

"Son illər ərzində Paşinyanın siyasətində biz burada Rusiya ilə bağlı yaxşı heç nə olmayacağının aydın göstəricilərini müşahidə etdik. Amma bundan əziyyət çəkən Rusiya deyil- biz əzəldən yaşadığımız kimi Ermənistansız da yaşaya bilərik, ancaq erməni xalqı əziyyət çəkir. Aİ və ABŞ-ın vədləri, təcrübənin göstərdiyi kimi, yaxşı heç nəyə gətirib çıxarmayacaq onlar bölgədə mövqe qazana və Türkiyəni bir az kənara itələyə bilərlər, lakin Ankaranın Cənubi Qafqazda mövqeyi güclü olduğu üçün daha çox şeyə ümid etməməlidirlər. Bundan sonra Ermənistanı özlərinin maraq dairələrindən çıxaracaqlar",- deyə politoloq əmindir.

Digər tərəfdən, onun fikrincə, Azərbaycan ABŞ üçün deyilsə də, şübhəsiz ki, Aİ üçün son dərəcə vacibdir və buna görə də Brüssel çox güman ki, İrəvanla Bakı arasında münasibətlərin pisləşməsinə müqavimət göstərəcək. Çünki tezliklə sülh müqaviləsinin imzalanması Rusiyanın maraqlarına uyğun olduğu kimi onun da maraqlarına uyğundur. Xüsusən də Cənubi Qafqazda sabitlik üçün Moskvaya bu lazımdır.

"Cənubi Qafqazda sabitliyin



Avropa üçün də vacib olmasının səbəbi də aydındır: Azərbaycanın enerji resursları Avropaya maneəsiz çatdırıla bilsin. Ona görə də hesab edirəm ki, ABŞ-ın hərəkətləri taktiki xarakter daşıyır, strateji baxımdan Qərb Azərbaycanla münasibətlərin korlanmasında maraqlı deyil, indi isə daha çox situasiya xarakterli olaraq Ermənistanın maraqlarından çıxış edirlər. Vəziyyət dəyişəndə isə və mütləq dəyişəcək,- ABŞ Ermənistana qarşı hərəkətə keçəcək. Vaşinqtonun ikiüzlülüyü Qarabağla bağlı verdiyi direktivlərdə özünü çox gözəl göstərir: azərbaycanlılar oradan qovulanda bir direktiv qəbul etdilər, bədnam 907-ci düzəlişi xatırlayaq",- S. Andrianov qeyd etdi.

Amma Ermənistan-Azərbaycan danışıqlarının perspektivlərinə gəlincə, həmsöhbətimiz nikbindir.

"Paşinyan hələ ki intihar etmir, o, qafqazlı Jirinovski deyil, baxmayaraq ki, bəzən onun hərəkətləri qəribə, gözlənilməz olur. Amma ümumilikdə mənə elə gəlir ki, hər şey proqnozlaşdırıla bilər və başa düşüləndir- Paşinyan Ermənistanı nəhayət ,Rusiyadan qoparmaq üçün ona çox şeylər vəd edən tərəfdaşlarının xoşuna gəlmək üçün hərəkət edir. Artıq deyə bilərik ki, Ermənistan faktiki olaraq KTMT-dən çıxıb və yaxın aylarda onun bu blokdan rəsmi çıxması baş tutacaq. Ermənilər Qarabağın itirilməsinin günahını



bütünlüklə Rusiyanın üzərinə qoydular. Baxmayaraq ki, bunun günahkarı yalnız İrəvandır və Rusiya ermənilərin istəkləri naminə beynəlxalq cinayətlər törətmək fikrində deyildi.

Sülh müqaviləsinə gəlincə, düşünürəm ki, o, imzalanacaq. Əgər Ermənistan hələ də tərəddüd etsə, o zaman Zəngəzur dəhlizi ilə bağlı məsələni Azərbaycan tamam başqa cür həll edəcək. Yeri gəlmişkən, Qarabağla belə oldu: Bakı təklif etdi, dözdü, dözdü sonra hər şeyə tüpürdü, gedib əraziləri qaytardı. Düşünürəm ki, Ermənistan bunu çox gözəl başa düşür, ona görə də Azərbaycanın səbrini çox da sınamayacaqlar. Ermənistan üçün prosesin özünü dondurmamaq, mümkün qədər çox üstünlük əldə etmək üçün bazarlıq etməsi vacibdir. Beləliklə, bütövlükdə, yaxında sülh müqaviləsinin imzalanması ehtimalına çox müsbət baxıram-hesab edirəm ki, bir neçə ay ərzində baş tutacaq. Və nə ABŞ, nə də Avropa vəziyyətin nəzarətdən çıxmasında maraqlı deyil. Amma Fransaya əmin deyiləm, o, Cənubi Qafqazda öz skripkasını çalır və ondan hansısa təxribat çox mümkündür. Lakin o, sülh müqaviləsinin bağlanmasına mane ola bilməyəcək",- S.Andrianov vurğulayıb.

Darya Qrevtsovanın sözlərinə görə, sərhəd komissiyalarının qarşıdakı iclası çox güman ki, işçi xarakter daşıyacaq, çünki İrəvanın sərhədlərin demarkasiyası və delimitasiyası məsələsini həll etmək üçün siyasi iradəsi və istəyi yoxdur. Xüsusilə indi, Ermənistan açıq şəkildə Fransa və Amerika dəstəyini təmin etdiyi bir vaxtda. Bu baxımdan, Paşinyan Azərbaycana öz şərtlərini diktə etməyə, güzəştə getməyə cəhd edə bilər. Hansı ki, bu, Azərbaycanın xoşuna gəlməyəcək.

"Ancaq delimitasiya və de-



markasiya məsələsi qaldırılmalı, bir çox texniki detallar müzakirə edilməli və onların hamısı qeydə alınmalıdır. Qarşıdan gələn görüş, məncə, sərhədin harada olduğu, qoyunların harada otarılacağına və elektrik xətlərinin harada olacağına qədər bu texniki detalları düzəltməyə daha yaxından yanaşmağa kömək edəcək. Məsələn, sərhəd əhalinin məskunlaşdığı ərazidən keçərsə, daha mürəkkəb problemlər yarana bilər. Deməli, bütün bunlar iki ölkənin işçi qruplarının fəaliyyət sahəsidir və gələcəkdə hansısa güzəştlərə getmək və ya güzəştə getməmək ölkə rəhbərliyinin iradəsidir. Əslində, Paşinyan sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan edir. Eyni zamanda, revanşistlərin reaksiyasından qorxduğu üçün dəfələrlə öz baxış bucağını, mövqeyini dəyişir. Ona görə də Paşinyan ehtiyatlı davranaraq bu prosesi hər cür ləngidir. Bununla belə, fikrimcə, indi sülh müqaviləsinin imzalanması üçün ən əlverişli məqamdır və bu mənada Bakı İrəvanın inadından əl çəkməməlidir. Üstəlik, biz Qərb dövlətlərinin Ermənistana təsirini görürük, xüsusən də İrəvanın anti-Azərbaycan, anti-Rusiya ritorikasını eşidəndə və özünü dağıdıcı aparmağa başlayanda",- D.Qrevtsova bildirib.

Ruslan Aysinin fikrincə, erməni tərəfi gec tez Azərbaycanın şərtləri ilə razılaşmalı olacaq. "Ermənistan indi yeni himayədar axtarır və görünür, onu hətta ABŞ-ın simasında tapıb. Və ondan əvvəl Rusiya, sonra Fransa var idi. Üstəlik qeyd edirəm ki, Ermənistanın praktiki olaraq heç bir variantı yoxdur - hər kəs ondan öz maraqları üçün istifadə etmək istəyir. Azərbaycan isə öz variantını, öz şərtlərini təklif edəndə mənə elə gəlir ki, bu, regionun geosiyasətində yaşamaq üçün alət kimi onun üçün ən sərfəli variantdır. Amma Ermənistan praktiki olaraq siyasi subyekt statusunu itirib və indi tamamilə başqa Qərb dövlətlərinin iradəsindən asılıdır. Sadəcə onu itələyirlər",- politoloq qeyd edib.

Amma onun hesab etdiyi kimi, Azərbaycan sərt və prinsipial mövqe nümayiş etdirməkdə davam edərsə, o zaman Cənubi Qafqazda gedən proseslərə heç kim müdaxilə edə bilməyəcək. Ermənistanın Azərbaycanla rəqabət aparacaq nə siyasi, nə hərbi, nə də maliyyə resursları var. Və bir neçə aydan sonra ABŞ seçki yarışı mərhələsinə qədəm qoyacaq. Fələstin münaqişəsi və Ukraynadakı müharibə Vaşinqton üçün prioritet problemlərdir və buna görə də heç kim erməniləri uzun müddət sürümək fikrində deyil.

"Əgər noyabrın 30-da olmasa belə, yaranmış şərait 2024-cü ilin əvvəlində Ermənistanı danışıqlar masası arxasına oturmağa, sülh müqaviləsi imzalamağa, sərhədin delimitasiyası və demarkasiyası üzərində əsaslı şəkildə işə başlamağa məcbur edəcək. Çünki əks halda Ermənistan siyasi parçalanma ilə üzləşəcək. Bu ölkə, sadəcə olaraq, dağılacaq. Bununla belə, Ermənistan artıq mental olaraq parçalanıb", - deyə R.Aysin yekunlaşdırıb.



**Tərcümə - Elçin Bayramlı**

SON SƏHİFƏ

# SƏS

29 noyabr
2023-cü il

# ”Yaxşı qız” sosial şəbəkə istifadə etməz?

## EKSPERT TƏNQİD ETDİ

“İndiki dövrdə demək olar ki, çox sahədə sürətli inkişaf gedir. İnsanların daha rahat, əlverişli, məqsədəuyğun istifadə edə biləcəyi yeniliklər ixtira edilir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Fatimə Hacıbəyli deyib.

Fatimə Hacıbəyli sözlərinə belə davam edib: ”Bu gün həyatımızda sosial şəbəkənin rolu əvəzsizdir. Düzdür, özünəməxsus mənfi cəhətləri də var, lakin baxır kim, necə və hansı dərəcədə istifadə edir. Burada müxtəlif fikir və məqsədli insanlar var. Lakin ciddi tanışlıq, sağlam münasibət, sevgi axtaranlar da az deyil. Bu cür insanların əksəriyyəti real həyatda istədiyini ala bilməyən, özünəqapanıq, çəkinən insanlardır. Onlar da müasir dövrün yaratdığı asan, geniş imkandan istifadə edir.

İndiki vaxtda sosial şəbəkədə tanış olub ailə həyatı quranlara pis baxmıram. Yəni, onların əksəriyyəti çarəsiz, tənha, özünəqapanıqdır. Onların burada öz istəklərinə qovuşması, ailə sevinci, xoşbəxtlik tapması pis hal deyil. Bu cür ünsiyyət, tanışlıq saytları dünya miqyasında öz sözünü deyib. Bu vasitə insanı tanımaq üçün müəyyən qədər açıq və əlverişlidir. ”Yaxşı qız sosial şəbəkə istifadə etməz” düşüncəsi gerizəkalığın əlamətidir. Qadın sosial şəbəkədən maariflənmək, bilgisini paylaşmaq üçün istifadə edirsə, bunun nəyi pisdir?! Buna qarşı çıxanların psixoloji problemi var deyə düşünürəm”.



Xatırladaq ki, ötən gün Gəncədə qardaş bacısının boğazını kəsərək qətlə yetirib. Buna səbəb isə qadının ”İnstagram”dan istifadə etməsi olub.

*Ayşən Vəli*

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# XƏBƏRDARLIQ: Vanna otağına bu halda qaz cihazı yerləşdirmək olmaz!

“Havalar soyuyanda mavi yanacağa tələbat artır. Bu baxımdan istilik cihazları da işə düşür. Bu zaman da dəm qazından boğulma halları nisbətən artıq olur”. Bu barədə SİA-ya açıqlamasında ”Azəriqaz” İstehsalat Birliyinin mətbuat katibi Eldəniz Vəliyev deyib.



Onun sözlərinə görə, boğulma halları soyuq havada kütləvidir demək olmaz, bu hallar istənilən fəsildə ola bilir: ”Bunun səbəbi SOCAR ”Azəriqaz” İstehsalat Birliyinin hansısa fəaliyyətsizliyindən irəli gəlmir. Biz dəfələrlə ən müxtəlif vasitələrlə, ən müxtəlif platformalarda izah etmişik ki, müəyyən parametrlərə uyğun gəlməyən addımları atmaq olmaz. İnsanlar mətbəxlərini eyvanlara çıxarır, bir otaqdan digər otaqlara rezin borular vasitəsilə qaz çəkirlər. Bu da təbii ki, hansısa sızmalara, sızmalar nəticəsində də partlayışlara və boğulmalara gətirib çıxarır”.

E.Vəliyev bildirib ki, ”Azəriqaz” İB dəfələrlə bu barədə vətəndaşlara xəbərdarlıq edib: ”Biz bildirmişik ki, vanna otaqları müxtəlif kvadratlara uyğun olmalıdır. Havalandırma sistemi olmadıqda qaz cihazlarının vanna otağına quraşdırılması qətiyyən olmaz. Çünki bu halda yanma düzgün getmir, oksigen çatışmazlığı olur. Nəticədə mavi yanacaq dəm qazına, dəm qazı da ölümə səbəb olur. Bu baxımdan biz dəfələrlə vurğulamışıq ki, parametrləri uyğun olmayan vanna otaqlarına cihazlar yerləşdirməsinlər. Burada insanlar ”Azəriqaz”ı yaxud da digər dövlət qurumlarını deyil, öz ailəsini və yaşadığı binanın sakinlərini nəzərə almalıdırlar ki, ”Sonrakı peşmançılıq fayda vermir” kimi bir qənaətə gəlməsinlər. Bütün bunların hamısı onu deməyə əsas verir ki, insan faktoru əsasdır və insanlar birinci növbədə öz təhlükəsizliyini özləri düşünməlidirlər”.

*Rəşid Qarayev*

# Avtomobildən 7 min manat oğurlayan şəxs tutulub



Noyabrın 25-nə keçən gecə Sabunçu Rayon Məştağa qəsəbəsi ərazisində ”Volkswagen” markalı bir avtomobildən 7 min manat məbləğində pulun qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, rayon polis idarəsinin 14-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini Ə.Əliyev müəyyən olunaraq saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

# Ronaldo penaltini ləğv etdirdi, gündəm oldu!



“Əl-Nəsr”in futbolçusu Kriştiano Ronaldo Asiya Çempionlar Liqasında ”Persepolis”ə qarşı matçda etdiyi hərəkətlə gündəm olub. Məsələ burasındadır ki, matçın 2-ci dəqiqəsində portuqaliyalı hücumçu cərimə meydançasında yıxıldıqdan sonra baş hakim Ma Ninq İran klubunun qapısına penalti təyin edib. Ancaq 38 yaşlı oyunçu referinin yanına gedərək həmin epizodda penalti olmadığını bildirib. VAR-da baxıldıqdan sonra penalti qərarı ləğv olunub. Qarşılaşma 0:0 hesabı ilə başa çatıb.

# Bir serialda çəkildilər, indi də sevgili oldular...

“Fox” kanalında yayımlanan ”Yabani” serialında yaşanan eşq gerçək olub. Türkiyə mətbuatının yazdığına görə, aktyorlar Simay Barlasla Halit Özgür Sarı sevgili olub. Qeyd edək ki, cütlük layihədə ”Yaman Ali” və ”Rüya” obrazına həyat verirlər. Türkiyə mediası yazır ki, hətta cütlük münasibətlərini rəsmiləşdirmək üçün də addımlar atmağa hazırlaşırlar.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000